QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 226 (5698) **29 noyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azad sahibkarlığın inkişafı günün reallığıdır

*Əldə olunan uğurlar Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu təsdiq edir*



Səh 2

**Prezident İlham Əliyev Xalq rəssamı Tahir Salahovu təbrik edib**



3

**Belarusun dövlət televiziyası: "Elə bir sahə yoxdur ki, Belarusla Azərbaycan arasında əlaqə qurulmasın"**



3

**Mehriban Əliyeva: "Tahir Salahovun əsərləri Azərbaycan rəngkarlığının inkişafında və daha geniş miqyasda bütöv bir dövr təşkil edir"**



3

**Bakıda Azərbaycan müəllimlərinin XV qurultayı keçirilib**



5

**Azərbaycan ilə Rusiya arasında sərhəd nəzarətinin daha da gücləndirilməsinə dair müzakirələr aparılıb**



7

**Arsen Baqdasaryan: Evə qayıtmağıma kömək edin!**



7

14

**"Mühacir biznesi" Əli Kərimlinin başına bəla açır**



10

**"Armenianreport": "Paşinyan demaqogiya və populizmlə məşğuldur"**



16

**"The Guardian": 2018-ci il Formula 1-in ən yaxşı yarışı Azərbaycan Qran-Prisi oldu**



# Azad sahibkarlığın inkişafı günün reallığıdır

## *Əldə olunan uğurlar Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu təsdiq edir*

***Azərbaycanın malik olduğu təbii sərvətlər, əlverişli coğrafi mühit ölkəmizə istər xarici investisiyaların cəlb olunmasına və istərsə də yerli sahibkarlığın inkişafına mühüm şərait yaradır. Belə bir münbit şərait Azərbaycanda sahibkarlığın inkişafı istiqamətində vacib addımların atılmasını labüd edir. Məhz biznes mühitinin, sahibkarlıq fəaliyyətinin inkişafı istiqamətində aparılan islahatlar Ulu Öndərimiz Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra daha dönməz və davamlı xarakter daşımağa başladı.***



Dahi Öndər Heydər Əliyevin iqtisadiyyatda ciddi dönüşə nail olmaq üçün neft amilindən məharətlə istifadə etməsi ölkəmizin beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi ilə yanaşı, əhalinin sosial-iqtisadi durumunun yaxşılaşmasına mühüm töhfələr vermiş oldu. 1994-cü il sentyabrın 20-də böyük təzyiqlərə baxmayaraq "Əsrin müqaviləsi"nin imzalanmasına nail olunması yüksək siyasi iradənin və qətiyyətin təntənəsi idi. Bu saziş yeni müqavilələrin imzalanmasını və ölkəyə investisiya qoyuluşunu təşviq etdi. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Ulu Öndər Heydər Əliyev ölkəmizin gələcək inkişaf kursunu böyük uzaqgörənliklə ifadə edərək demişdir: "Bir Prezident kimi mən Azərbaycanın iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir".

### Yeni iqtisadi islahatlar yeni inkafa töhfələr vermiş oldu

Dahi Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev apardığı düşünülmüş, məqsədyönlü siyasət nəticəsində Azərbaycan dövləti bütün sahələrdə yeni uğurlara və nailiyyətlərə imza atıb. Bu gün Prezident İlham Əliyev böyük əzmkarlıq və mətanət göstərməklə, ölkəmizi qət olunması çətin sayılan zirvələrə ucaldır, dövlətçiliyimizi və tarixi müstəqilliyimizi daha da möhkəmləndirir. Beynəlxalq maliyyə qurumlarının açıqladığı hesabata əsaslanaraq demək olar ki, son illər Azərbaycan rəqabət indeksi üzrə dünyanın 60 ölkəsi içərisində, postsosialist məkanında isə ilk yerlərdə təmsil olunur. Adambaşına düşən birbaşa xarici investisiyanın həcminə görə Azərbaycan regionda lider, dünyada isə ilk onluqdadır. Azərbaycan dünyanın ən islahatçı ölkəsidir. Rəqabətədavamlılıq sahəsində Azərbaycan MDB ölkələri arasında şəksiz liderdir. Həyata keçirilmiş tədbirlər ölkədə yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarıb, 1 milyon 900 minə yaxın yeni iş yeri açılıb. Şəhər və kəndlərimiz günbəgün dəyişir, regionlarımız müasirləşir, informasiya-kommunikasiya vasitələrinin səmərəli inkişafı sayəsində ölkəmiz mühüm intellektual mərkəzə çevrilir. Bunların hamısı bir daha ölkəmizin sürətli inkişafının və modernləşməsinin bariz nümunəsidir. Ümummilli Liderimiz Heydər Əliyevin 2003-cü ilin prezident seçkiləri ərəfəsində dediyi "Mən ona özüm qədər inanıram", tarixi fikri özünün layiqli davamçısı kimi cəmiyyətə təqdim etdiyi Prezident İlham Əliyevin respublikaya rəhbərliyi dövründə əldə olunmuş böyük nailiyyətlər Azərbaycan xalqının seçimində qətiyyən yanılmadığını bir daha təsdiqləyir. Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsindən bəhrələnən Prezident İlham Əliyev Ümummilli Liderimizin möhkəm təməllər üzərində formalaşdırdığı idarəçilik ənənələrini uğurla davam etdirir. Prezident İlham Əliyev ölkədə azad sahibkarlığın inkişaf etdirilməsinə maraq göstərir, diqqət və qayğı ilə yanaşır, bu istiqamətdə təxirəsalınmaz addımlar atır, sahibkarların fəaliyyətinə stimul verəcək fərman və sərəncamlar imzalayır. Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydalarının təkmilləşdirilməsi istiqamətində görülən işlər dövlət başçısının diqqət və qayğısından, eləcə də sahibkarlıq mühitinin inkişafı üçün yaradılan əlverişli şəraitdən xəbər verir.

### Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Birmənalı şəkildə demək olar ki, sahibkarlığın inkişafına dair qəbul olunmuş dövlət proqramları azad sahibkarlığın inkişafına öz töhfələrini verib. Azərbaycanda özəl sektorun yeni inkişaf mərhələsinə qədəm qoymasında, azad sahibkarlığın inkişafında dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi siyasətin əhəmiyyətli rolu var. Regionlarda həyata keçirilən mühüm infrastruktur layihələri, anti-inhisar fəaliyyətinin gücləndirilməsi, "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı"nın təsdiqlənməsi, regional iqtisad məhkəmələrinin yaradılması, inflyasiyanın qarşısının alınması üçün tədbirlər görülməsi, ələlxüsus, biznes subyektlərinin qeydiyyat və lisenziya sisteminin sadələşdirilməsi məqsədi ilə bir pəncərə prinsipinin tətbiqi azad sahibkarlığın inkişafı istiqamətində görülən tədbirlər sırasındadır və uğurlu iqtisadi siyasət aparıldığını təsdiq edir. Bu uğurlu iqtisadi siyasət sayəsində regionlarda istehsal olunan bir cox məhsullar artıq dünya bazarlarına da ixrac olunur və bu da qeyri-neft məhsullarının ixracatda xüsusi çəkisini artırmaqla daha sürətli iqtisadi inkişafa zəmin yaradır.

Azərbaycanda yeni islahatların həyata keçirilməyəsi, aparılan iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyinin və iqtisadi artımın bərpa olunması, bir çox sahələrdə, xüsusilə, kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyişlərin əldə edilməsi qlobal hesabtlarda da öz əksini tapır. Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə sahibkarlığa verilən dəstək, biznes mühitinin təkmilləşdirilməsi, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, sahibkarlara dövlət büdcəsindən ayrılan yardımların, köməkliklərin reallaşdırılması ölkəmizin qlobal hesabatda mövqeyinin ardıcıl olaraq yaxşılaşdırılmasına öz töhfələrini verməkdədir. Dövlət-biznes tərəfdaşlığı artıq bütün dünya ölkələri üçün nümunə hesab olunur və qlobal hesabatlarda hər il müşahidə olunan irəliləyiş təsdiq edir ki, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipidir. Azərbaycan Respublikası Prezidentinin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində aparılan kompleks iqtisadi islahatlar, məhz "Doing Business 2019" hesabatında da öz əksini tapmaqdadır. "Doing Business 2019" hesabatında qeyd olunur ki, "Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib".

### Sahibkarlığın inkişafı üçün yeni - yeni layihələr həyata keçirilir

Söz yox ki, qlobal hesabatda ölkəmizin biznesin dinamikliyi reytinqi üzrə ön pillədə qərarlaşması heç də təsadüfi deyil və azad sahibkarlıq fəaliyyəti üçün yaradılan münbit şərait, sahibkarlıq subyektlərinə dövlət tərəfindən güzəştlərin tətbiq edilməsi, öhdəliklərdən azad edilməsi, dövlət vəsaitləri hesabına iş adamlarına, sahibkarlara subsidiyaların, güzəştli kreditlərin təqdim edilməsi ölkəmizin biznesin dinamikliyi reytinqi üzrə ön pillədə qərarlaşmasını şərtləndirir. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1269-VQD nömrəli Qanununun tətbiqi sahibkarlığa diqqət və qayğının bariz nümunəsi olmaqla yanaşı, azad sahibkarlıq mühitinin formalaşmasına dövlət dəstəyidir. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1268-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı da, həmçinin azad sahibkarlıq mühitinin inkişafı üçün yaradılan şəraitdən xəbər verir və təsdiq edir ki, sahibkarlığa dövlət dəstəyi, dövlət köməyi artıq dövlət siyasətinin bir hissəsinə çevrilib və bu siyasətin mərkəzində vətəndaş amili, azad sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, ölkənin iqtisadi inkişafı dayanır. İstər Dünya İqtisadi Forumu, istərsə də "Doing Business" kimi beynəlxalq hesabatlarda irəliləyişləri şərtləndirən, sözsüz ki, biznes, azad sahibkarlıq mühitinin davamlı olaraq yaxşılaşdırılması, təkmilləşdirilməsi və fasiləsiz olaraq əsaslı islahatların aparılmasıdır. Biznesin dinamikliyi reytinqi üzrə dünyanın 140 ölkəsi arasında Azərbaycanın 31-ci yerdə qərarlaşması isə heç də təsadüfi deyil və bu göstərici son illər Prezident İlham Əliyev tərəfindən aparılan iqtisadi islahatların məntiqi nəticəsidir. Əbəs yerə deyil ki, həmin indikatora əsasən, Azərbaycanın mövqeyi biznesə başlamaq üçün tələb olunan günlərin sayı alt-indikatoru üzrə 17-ci, müflisləşmə normativ-hüquqi bazası alt-indikatoru üzrə 17-ci, sahibkarlıq riskləri alt-indikatoru üzrə 21-ci və ideyaların şirkətə təsiri alt-indikatoru üzrə 25-ci olub. Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu təsdiq edir. Təsdiq edir ki, aparılan islahatlar cəmiyyətin bütün təbəqələrinin, o cümlədən biznes subyektlərinin mənafelərini əks etdirir, azad sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasını təmin edir. Məhz yeni-yeni layihələrin reallaşdırılması təsdiq edir ki, azad sahibkarlığın bundan sonra daha sürətli inkişafı günün reallığıdır.

***İnam HACIYEV***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə*



# Prezident İlham Əliyev Xalq rəssamı Tahir Salahovu təbrik edib

Prezident İlham Əliyev Xalq rəssamı Tahir Salahovu təbrik edib. Trend-in məlumatına görə, təbrikdə deyilir: "Hörmətli Tahir müəllim! Sizi - dövrümüzün böyük sənətkarını və tanınmış ictimai xadimi 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram.

Müasir rəssamlıq məktəbinin görkəmli nümayəndəsi olaraq Siz uzunmüddətli səmərəli və bənzərsiz yaradıcılığınızla zəngin mədəniyyət salnaməmizə yeni səhifələr yazmış, milli sənət xəzinəmizin qızıl fondunda özünə həmişəlik layiqli yer tutan əsərlərinizlə Azərbaycan təsviri sənətinə geniş şöhrət qazandırmısınız.

"Sərt üslub"un banilərindən biri kimi yaratdığınız sənət nümunələrində insan taleyi vasitəsilə dünyaya, həyata baxışınız və fəlsəfi düşüncələriniz rənglərin ən incə çalarları ilə dolğun ifadəsini tapmışdır. Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirən, mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləriniz ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirlər təlqin edir. Heyrətamiz portret yaradıcılığınız sənətsevərlər tərəfindən daim rəğbətlə qarşılanmışdır. Vətənə məhəbbət dolu silsilə lövhələr, peyzajlar və natürmortlarınızda insanın təbiətlə dərin məna kəsb edən ahəngdar mənəvi vəhdətini əks etdirməyə müvəffəq olmusunuz.

Dünyanın mötəbər muzeylərini, məşhur qalereyalarını bəzəyən və şəxsi kolleksiyalarda saxlanılan əsərlərinizin, hər biri hadisəyə çevrilən fərdi sərgilərinizin Azərbaycan mədəniyyətinin ölkə hüdudlarından uzaqlarda təbliğində böyük rolu vardır. Milli rəssamlığın gələcək inkişafı üçün gənc fırça ustalarının yetişdirilməsi sahəsində xidmətləriniz təqdirə layiqdir.

Sizin çoxşaxəli yaradıcılığınız və məhsuldar ictimai fəaliyyətiniz xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Siz müstəqil Azərbaycan Respublikasının ən ali təltiflərinə - 1998-ci ildə "İstiqlal" və 2008-ci ildə "Heydər Əliyev" ordenlərinə, 2015-ci ildə Heydər Əliyev mükafatına layiq görülmüsünüz. Çoxsaylı beynəlxalq mükafatlarınız da sənətinizə göstərilən ehtiramın parlaq təzahürüdür.

Əminəm ki, mədəniyyətimizin bugünkü simasının müəyyənləşməsində və dünya incəsənətinin inkişafında özünəməxsus mövqeyə malik sənətkar və şəxsiyyət kimi Siz Azərbaycan təsviri sənətinin şöhrətini bundan sonra da yeni zirvələrə ucaldacaqsınız. Ən xoş arzularla".

# Mehriban Əliyeva: "Tahir Salahovun əsərləri Azərbaycan rəngkarlığının inkişafında və daha geniş miqyasda bütöv bir dövr təşkil edir"

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Azərbaycanın Xalq rəssamı Tahir Salahovu təbrik edib.*



Təbrikdə deyilir: "Hörmətli Tahir Teymur oğlu. Bu gün Azərbaycanda əlamətdar tarix - Böyük Ustad, planetar miqyaslı rəssam, gözəl pedaqoq və ictimai xadim Tahir Salahovun yubileyi qeyd edilir.

Hörmətli Tahir Teymur oğlu, Sizi haqlı olaraq təsviri incəsənətin canlı klassiki və bütöv bir üslubun banilərindən biri hesab edirlər. Sizin əsərləriniz dünya mədəniyyəti xəzinəsinə, XX və XXI əsrlərin təsviri incəsənətinin "qızıl fondu"na daxildir. Onlar Azərbaycan rəngkarlığının inkişafında və daha geniş miqyasda bütöv bir dövr təşkil edir. Siz əsərlərinizdə altmışıncı illərin azadlıq ruhunu böyük ustad müdrikliyi ilə, təkrarolunmaz bənzərsizliyi həyatın bütün müxtəlifliyində görmək bacarığı ilə, şəksiz istedadı və ən yüksək ustalığı asanlıqla tanınan müəllif üslubu ilə heyrətamiz şəkildə birləşdirməyə nail olmusunuz. Bu, həqiqətən əsrlər boyu yaşamağa qabil olan əsl sənətdir.

Hörmətli Tahir Teymur oğlu.

Ola bilsin, bunu deyənlər haqlıdır ki, həqiqi sənətkar yaşadığı dünyanı sevməlidir. Sizin yaradıcılıq dünyanız parlaq və rəngarəngdir. Onun fərqləndirici cəhəti doğma ölkənizə - Azərbaycana həqiqi, səmimi vətənpərvərlik, dərin və ülvi sevgidir.

Siz həm çoxsaylı həmvətənlərimiz, həm də dünya yaradıcı ziyalılarının nümayəndələri üçün ən yüksək insani keyfiyyətlərin nümunəsi olmusunuz və belə olaraq qalırsınız. Parlaq erudisiyanız, həssaslığınız və məsuliyyətiniz Sizə ətrafdakı insanların sevgisini və dərin hörmətini qazandırıb. Siz, hörmətli Tahir Teymur oğlu, sadəcə, böyük rəssam deyil, həm də heyrətamiz insan və gözəl müəllimsiniz. Dünya şöhrətli tanınmış ustad olmağınıza baxmayaraq, yaradıcı axtarış cəsarətini itirməmisiniz və yaradıcılıq enerjiniz əvvəlki kimi aşıb-daşır.

Hörmətli Tahir Teymur oğlu.

Yubileyiniz münasibətilə ən səmimi, ürəkdən gələn təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, ailə səadəti, bizi, Sizin böyük istedadınızın pərəstişkarlarını sevindirmək üçün əmin-amanlıq və yeni zəfərlər arzulayıram. Doğum gününüz mübarək".

# QDİƏT-in Parlament Məclisinə sədrlik Azərbaycana keçib




Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament (QDİƏT) Məclisinə sədrlik Azərbaycana keçib. AZƏRTAC xəbər verir ki, bununla bağlı qərar məclisin İrəvanda keçirilmiş 52-ci sessiyasında qəbul edilib. Beləliklə, növbəti - 53-cü sessiya 2019-cu ilin iyununda Bakıda təşkil olunacaq.

QDİƏT-in Parlament Məclisinin 52-ci sessiyasında Milli Məclisin aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyev, Milli Məclisin deputatı, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov iştirak ediblər. Tədbirdə təşkilatın regionda iqtisadi əlaqələrin möhkəmlənməsində rolu, həmkarlar ittifaqının cəmiyyətlərə təsiri, bölgənin turizm potensialı və perspektivi mövzularında müzakirələr aparılıb. Məlum olduğu kimi, sessiyanın dünənki iclasında E.Quliyev "Regional iqtisadi əməkdaşlığın inkişafında parlamentlərin rolu", Ə.Amaşov isə "Azərbaycan Respublikasında kiçik biznesin inkişafında dövlət dəstəyi" mövzusunda çıxış ediblər.

# Belarusun dövlət televiziyası: "Elə bir sahə yoxdur ki, Belarusla Azərbaycan arasında əlaqə qurulmasın"




Belarusun dövlət televiziya kanalı Azərbaycanla münasibətlərə dair reportaj yayımlayıb. AZƏRTAC xəbər verir ki, reportajda Azərbaycan-Belarus əlaqələrinin inkişafı barədə danışılır. Bildirilir ki, Bakı ilə Minsk yalnız dost deyillər, həm də bütün sahələrdə sıx əməkdaşlıq edirlər. Azərbaycan və Belarus prezidentləri İlham Əliyev və Aleksandr Lukaşenko arasında dostluq münasibətləri mövcuddur. Azərbaycan və Belarus etibarlı tərəfdaşlar, bir-birinə diplomatik qarantlardır.

"İki ölkə arasında dostluq münasibətlərinin əsası 25 il əvvəl qoyulub və o vaxtdan bu dövlətlər yaxın qohumlar kimi mehribandırlar. Elə bir sahə yoxdur ki, Belarusla Azərbaycan arasında əlaqə qurulmasın", - deyə reportajda vurğulanır. Telekanalın jurnalisti, həmçinin Azərbaycanın və Belarusun birgə istehsal müəssisələri, birlikdə həyata keçirilən layihələr, ölkəmizin turizm potensialı, Bakının gözəlliyi haqqında ətraflı məlumat verir.

# Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr əldə edilən uğurlara öz töhfəsini verir

***Ölkənin ictimai-mədəni və sosial həyatında önəmli rola malik olan Heydər Əliyev Fondu fəaliyyətə başladığı zaman kəsiyində bir çox yerli və beynəlxalq əhəmiyyətli layihələri gerçəkləşdirib. Azərbaycanın beynəlxalq arenada tanınmasında, qədim və zəngin mədəniyyətə malik xalqımız haqqında obyektiv ictimai rəyin formalaşmasında, elm və səhiyyənin inkişafında xidmətləri olan fond bu gün dünyanın müxtəlif ölkələrində nümayəndəliklərini yaratmaqla, daha geniş məkanlara inteqrasiya olunur. Fondun Rusiya Federasiyasında, Rumıniyada, Türkiyədə və ABŞ-da nümayəndəlikləri fəaliyyət göstərir.***



Fondun 2007-ci ildən fəaliyyətdə olan Rusiya Federasiyasındakı nümayəndəliyi beynəlxalq mahiyyət kəsb edən layihələrin gerçəkləşməsinə imza atıb. Belə ki, nümayəndəlik Heydər Əliyev Fondunun Azərbaycanda gerçəkləşdirdiyi təhsil, səhiyyə, mədəniyyət, idman və sosial sahədəki analoji layihələri Rusiya Federasiyasında həyata keçirir. “Təhsilin dəstəklənməsi” layihəsi çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA kampaniyasının təsisçisi, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının rəhbəri Leyla Əliyeva mütəmadi olaraq, məktəblərə, uşaq evlərinə səfərlər edir, müxtəlif xeyriyyəçilik aksiyaları həyata keçirir. Leyla xanım Əliyeva Azərbaycan mədəniyyətinin nailiyyətlərinin nümayiş etdirilməsinə, Azərbaycanın bugünkü reallıqlarının Rusiya ictimaiyyətinə çatdırılmasına, Azərbaycan və Rusiya xalqları arasında dostluğun möhkəmləndirilməsinə də töhfələrini verir. Bu gün Leyla xanım Əliyevanın rəhbərlik etdiyi RAGT-ın qarşıya qoyduğu əsas vəzifə Rusiyanın azərbaycanlı gənclərini və onların dostlarını sıx birləşdirməkdir. Leyla Əliyeva “Biz, Azərbaycanın gənc nəsli dünyaya açıq gözlə baxmaq və daim Vətənimizi unutmamaq, köklərimizi və ənənələrimizi sevmək və qoruyub-saxlamaq istəyirik” - deyir. RAGT bu missiyanın öhdəsindən uğurla gəlir və bu gün Rusiyanın azərbaycanlı gənclərinin hərəkətverici qüvvəsinə çevrilib. Son illərdə “Qanın milləti yoxdur!”, “Sağlam olduğunu yəqin et, xəstəliyə “yox” de!” pulsuz müayinə aksiyasını gerçəkləşdirib. Pulsuz qanvermə aksiyasında hər il gənclərin yüzlərlə nümayəndəsi iştirak edir, toplanmış vəsait isə onkoloji xəstəliklərdən əziyyət çəkən uşaqların müalicəsinə sərf edilir.

Bütün bu layihələrlə yanaşı, nümayəndəlik Azərbaycan mədəniyyətinin, incəsənətinin və ədəbiyyatının təbliği istiqamətində də çox mühüm işlər görür. Təşkil olunan silsilə konsertlər, sərgilər, Qədim Azərbaycanın tarixinə və mədəniyyətinə, Azərbaycan xalqının müasir incəsənətinə və bənzərsizliyinə həsr edilmiş təqdimat mərasimləri fikirlərimizi təsdiqləyir. Sərgilərdə nümayiş olunan əsərlər bu gün Azərbaycanda baş verənlərin böyük bir hissəsini əks etdirir:”Mənim ölkəm misli görünməmiş inkişaf dövrü yaşayır və bu, özünü müasir incəsənət sahəsində daha da qabarıq göstərir. Müasir Bakı xalq mədəniyyətini təkcə musiqi vasitəsilə bayram etmir. Bakını gəzərkən siz küçələr boyu ətrafınızda sürətli inkişaf görə bilərsiniz - Zaha Hadidin şah əsərindən tutmuş yeni mağazalar, restoranlar və mehmanxanalar düzülmüş prospektlərədək, Xəzər dənizinin sahilində bulvaradək! Bu, gözünüzün önündə dəyişən şəhərdir”.

Azərbaycanda mədəniyyətə, sənətə və sənətkarlara böyük diqqət göstərilir, ölkəmizdə mədəniyyətin inkişafı üçün daha münbit şəraitin yaradılması, mədəniyyət və incəsənət nümayəndələrinin azad yaradıcılıq imkanlarının təmin edilməsi yolunda müntəzəm surətdə tədbirlər həyata keçirilir. Gördüyümüz kimi, layihələrin sayı gündən-günə artır. Buna görə fondun nümayəndəliyinin fəaliyyətinin coğrafiyası daha da genişlənir. Məqsəd isə milli mədəniyyəti və ənənələri, Azərbaycanı, Azərbaycan həqiqətlərini bütün dünyada təbliğ etməkdir. Leyla xanım Əliyeva müsahibələrinin birində ona ünvanlanan “Sizin üçün “mümkün deyil” anlayışı mövcuddurmu” sualına “xeyr”, - deyə qətiyyətlə cavab verir: “Çünki nə vaxt ki, “bacarmıram” deyirlər, bu, əslində, “lazımi qədər istəmirəm” deməkdir. Yəni bir şeyi kifayət qədər istəyirsənsə, istədiyinə inanırsansa, çox iş görmək mümkündür. Vacib olanı isə gördüyün işin, həqiqətən, faydalı olmasıdır. Dərəcəsindən asılı olmayaraq, müsbət nəticəni, işinin fayda verdiyini gördükdə, daha çox iş görmək istəyirsən”.

Təşkilatın maraqlı planları, layihələri və ideyaları kifayət qədərdir. Əldə olunan nailiyyətlərə baxmayaraq, qarşıda çox mühüm vəzifələr də dayanır. “Bu gün Azərbaycan çox böyük sürətlə inkişaf edən müasir və müstəqil dövlətdir: yeni yollar çəkilir, binalar tikilir, parklar, körpülər salınır, memarlıq abidələri, muzeylər, teatrlar bərpa olunur. “...Ərazilərimizin iyirmi faizinin işğal altında olmasına, ölkədə bir milyona yaxın qaçqın və məcburi köçkünün olmasına baxmayaraq, biz inanırıq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz ədalətli həllini tapacaq və bütün qaçqınlar öz doğma yurdlarına-evlərinə qayıdacaqlar” - deyən Leyla xanım bu münaqişə haqqında həqiqətləri dünya birliyinə çatdırmaqda da israrlıdır. Rusiyada yaşayan Azərbaycan gəncləri arasında körpü yaradaraq, çətinliklərin dəf olunması istiqamətində geniş planlarını reallaşdırır.

Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə yardımçı olan nümayəndəlik Azərbaycan həqiqətlərini dünyaya çatdırılmasında bir vasitəçi və ötürücüdür. Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülən “Xocalıya Ədalət” beynəlxalq məlumatlandırma kampaniyası Xocalı soyqırımı və Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səmərəli fəaliyyət göstərir. Gənclə-



ri bir ideya ətrafında toplamağa çalışan və Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə Leyla xanım Əliyeva çıxışların birində belə deyir: “Xaricdə yaşayan Azərbaycan gəncləri bu münaqişə haqqında həqiqəti dünya birliyinə çatdırmalı və Vətənimizi, dilimizi, mədəniyyətimizi, ənənələrimizi heç vaxt unutmamalıyıq. Mən inanıram ki, əgər biz, Rusiyada yaşayan Azərbaycan gəncləri həmişə əlbir olsaq, bir-birimizi eşitsək, bir-birimizə kömək etsək, bir-birimizə məhəbbətlə yanaşsaq, onda istənilən çətinlikləri dəf edə biləcəyik və həmişə üzüağ, alnıaçıq olacağıq.”

“Xocalıya Ədalət” kampaniyası sayəsində Xocalı faciəsi artıq bir sıra beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina parlamentləri Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanıyır. ABŞ-ın Vest-Virciniya, Pensilvaniya, Missisipi, Meyn, Texas, Arkanzas, Oklahoma, Nyu-Meksiko, Tennesi ştatlarının qanunverici orqanlarında da Xocalı faciəsi ilə əlaqədar qətnamələr qəbul edilib.

Bu istiqamətdə tədbirlər davam etdirilir. Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması və bu istiqamətdə gerçəkləşən layihələrin coğrafi məkanı ilbəil genişlənir.

Kampaniya çərçivəsində Leyla Əliyevanın aktiv fəaliyyəti Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin ifşa edilməsinə böyük töhfə verib və işğalçıların əsl simasının üzə çıxmasına imkan yaradıb.

Leyla xanım Əliyevanın təşəbbüsü ilə IDEA İctimai Birliyi tərəfindən ölkəmizdə ekologiyanın qorunması ilə bağlı müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilib. IDEA-nın yaşıllaşdırma layihələrinin məqsədi ekoloji tarazlığı bərpa etmək, yaşıllıq zolaqlarının artırılmasına töhfə vermək, insanların diqqətini yaşıllıqların qorunmasına yönəltmək, eləcə də, ətraf mühitin mühafizəsi işində ictimai nəzarəti gücləndirməkdir.

Onun təşəbbüsü ilə yaradılmış IDEA İctimai Birliyi Azərbaycanın unikal təbiətinin mühafizəsinə, ümumilikdə, ölkənin ekoloji vəziyyətinin yaxşılaşmasına mühüm töhfə verib. IDEA İctimai Birliyinin son illər regionlarda həyata keçirdiyi xoşməramlı layihələr çərçivəsində salınan meyvə bağları orada yaşayan Qarabağ müharibəsi əlilləri və şəhid ailələri, aztəminatlı ailələr arasında bölünərək, onların təmənnasız istifadəsinə verilir. Bu ailələr meyvə bağlarına qulluq göstərərək, məhsul götürməklə gəlir əldə etmək və maddi rifahlarını yaxşılaşdırmaq imkanı qazanıblar.

IDEA İctimai Birliyinin təşəbbüsü ilə həyata keçirilən bu layihə ekoloji tarazlığın qorunmasında mühüm əhəmiyyət kəsb etməklə bərabər, eyni zamanda, həm də iqtisadi mahiyyət daşıyır. Bu cür bağların salınması əhalinin rifahının yaxşılaşdırılması ilə yanaşı, ölkəmizin kənd təsərrüfatı məhsullarının idxalından asılılığının azalmasına da töhfə verəcək.

Xatırladaq ki, meyvə ağaclarının əkilməsi üzrə pilot layihəyə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) xoşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ilin aprel ayından başlanılıb. Layihə çərçivəsində ilk meyvə bağları İsmayıllı, daha sonra Şəmkir, Ağstafa, Tovuz, Ağdaş, Lənkəran, Beyləqan, Sabirabad, Ağcabədi, Bərdə, Lerik, Quba və Qəbələ rayonlarında salınaraq aztəminatlı ailələr, o cümlədən, Qarabağ müharibəsi veteranları və şəhid ailələrinin istifadəsinə verilib.

Layihə çərçivəsində fındıq, nar, ərik, feyxoa, xurma, qoz, alma növlərindən olmaqla, ümumilikdə, 17 min 248-ə yaxın meyvə ağacı əkilib və 50 aztəminatlı ailəyə təqdim edilib. Bu gün də bu xoşməramlı layihə regionlarımızda davam etdirilməkdədir.

***ZÜMRÜD BAYRAMOVA***

# Bakıda Azərbaycan müəllimlərinin XV qurultayı keçirilib




***Noyabrın 28-də Bakı Konqres Mərkəzində Azərbaycan müəllimlərinin XV qurultayı keçirilib. AZƏRTAC xəbər verir ki, qurultay iştirakçıları əvvəlcə Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyublar.***

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub. Qurultay Azərbaycan Respublikasının dövlət himninin oxunması ilə başlayıb. Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin və Azərbaycan müəllimlərinin XIV qurultayından ötən dövr ərzində vəfat etmiş təhsil işçilərinin əziz xatirələrini bir dəqiqəlik sükutla yad ediblər.

XV qurultayda Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, Baş nazirin müavini Əli Əhmədov, Milli Məclis sədrinin müavini Bahar Muradova, dövlət və hökumət rəsmiləri, deputatlar, elm xadimləri və təhsil ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Azərbaycan Prezidenti İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Təhsil naziri Ceyhun Bayramov iştirakçıları salamlayaraq Azərbaycan müəllimlərinin XV qurultayının işinə uğurlar arzulayıb.

Hesabat məruzəsi ilə çıxış edən Ceyhun Bayramov əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu təhsil islahatlarının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Nazir bildirib ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan ötən 5 il ərzində ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunub, bir sıra əsaslı nailiyyətlər əldə edilib. Cari il üçün "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan 140 ölkə arasında 69-cu yerdə qərarlaşıb, ölkəmizin mövqeyi 12 indikatordan 9-u üzrə yaxşılaşıb. Həmçinin təhsil indikatorları üzrə ciddi irəliləyişə nail olunub, Azərbaycanın göstəriciləri dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən də yüksək olub. Belə ki, təhsilin kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan bacarıqlar indeksi üzrə ölkəmiz ümumilikdə 54-cü yerə, bu kateqoriyanın tərkib hissəsi olan rəqəmsal bacarıqlar üzrə 15-ci, tədrisdə tənqidi düşüncə üzrə 27-ci, bacarıqlı işçilər tapmaq asanlığı üzrə 31-ci, məzunların bacarıqları üzrə 32-ci, ibtidai təhsildə müəllim-şagird nisbəti üzrə 48-ci yerə yüksəlib.



Həyata keçirilən islahatlar nəticəsində ölkədə müəllim peşəsinin nüfuzunun daha da artdığını deyən nazir ötən illər ərzində müəllimlik üzrə müraciət edənlərin sayında 3 dəfəyə yaxın artım qeydə alındığını diqqətə çatdırıb. Qeyd edib ki, son 5 ildə 18 min 136 müəllim işə qəbul olunub, kənd məktəblərində fəaliyyətə başlamış 11 min 600 nəfərə həvəsləndirmə tədbirləri tətbiq edilib.

Nazir bildirib ki, qəbul imtahanlarında 500 və daha çox bal toplayan abituriyentlər arasında müəllim ixtisasını seçənlərin sayı 2090 nəfərə çatıb, bu isə 2014-cü illə müqayisədə 2,3 dəfə artım deməkdir. Ümumi təhsil sistemində çalışan 142 mindən çox müəllimin diaqnostik qiymətləndirilməsi başa çatdırılıb, onların həftəlik dərs yükü 1,5 dəfə, vəzifə maaşı 2 dəfə artırılıb.

Son 5 ildə ölkədə 500-dən çox, 2003-2018-ci illər ərzində isə 3500-dək məktəb binasının tikildiyini və ya əsaslı təmir olunduğunu bildirən nazir bunun nəticəsində 1 milyondan çox şagirdin təlim şəraitinin əhəmiyyətli şəkildə yaxşılaşdırıldığını vurğulayıb.

Tədbirdə çıxış edən Baş nazirin müavini Əli Əhmədov ulu öndər Heydər Əliyevin "Mən dünyada müəllimdən şərəfli ad tanımıram" kəlamını xatırladıb. Baş nazirin müavini deyib ki, insanın taleyi, gələcəyi, öz ailəsinə, cəmiyyətə, dövlətə xidməti valideynlərin verdiyi tərbiyə ilə yanaşı, məktəbin və müəllimlərin verdiyi bilik və vərdişlərdən də bilavasitə asılıdır. Bu baxımdan müəllimlər, sözün həqiqi mənasında, həm insanın, həm cəmiyyətin, həm də dövlətin inkişafında çox mühüm vəzifəni yerinə yetirirlər. Təhsilin inkişafının dövlətin siyasətində əsas prioritetlərdən biri olduğunu vurğulayan Əli Əhmədov qarşıda duran vəzifələrdən də danışıb. O, qurultayın qərarlarının təhsil sisteminin daha da inkişaf etməsinə töhfə verəcəyinə əminliyini bildirib. Milli Məclis sədrinin müavini Bahar Muradova ötən beş ildə Azərbaycanda təhsil sisteminin uğurlarını yüksək qiymətləndirib. Qeyd edib ki, bu uğurlar, həmçinin Azərbaycan dövlətinin iqtisadi imkanlarının artmasının, regionda və dünyada mövqeyinin möhkəmlənməsinin və əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil siyasətinin bu gün uğurla davam etdirilməsinin nəticələridir. Bahar Muradova təhsil sahəsində qanunvericiliyin hər zaman diqqət mərkəzində olduğunu qeyd edib.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov dövlətimiz tərəfindən təhsilə və təhsil işçilərinə xüsusi diqqət və qayğı göstərilməsindən danışıb. Bildirib ki, muxtar respublikanın şəhər, rayon və kəndlərində yeni-yeni məktəb binaları tikilib, təhsil müəssisələri müasir avadanlıqlarla təchiz olunub. 2017-2018-ci tədris ili Naxçıvan üçün uğurlu olub. Məzunlardan 1781-i ali məktəblərə, 615-i isə orta ixtisas təhsili müəssisələrinə qəbul edilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev ölkəmizdə təhsil sisteminin inkişafında həyata keçirilən dövlət proqramlarından danışıb, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nı bu sahədə atılmış növbəti mühüm addımlardan biri kimi dəyərləndirib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri təhsil işçilərinin sosial hüquqları, müəllimlərin sosial problemlərinin həlli, asudə vaxtlarının səmərəli təşkili istiqamətlərində görülən işlərdən danışıb və bu işlərin davamlı olacağını vurğulayıb.

Qurultayda çıxış edən Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafı bütün sahələr üzrə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasını tələb edir. Azərbaycan Prezidenti İlham Əliyevin təhsilə xüsusi önəm verdiyini vurğulayan Məleykə Abbaszadə deyib ki, respublikamızda bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Dövlət İmtahan Mərkəzinin fəaliyyəti barədə ətraflı məlumat verən DİM Direktorlar Şurasının sədri bildirib ki, bu qurumun vəzifəsi ölkəmizdə həyata keçirilən mərkəzləşdirilmiş imtahanların təşkili və onun keyfiyyətinin təmin olunmasından ibarətdir. Bu ilin ötən 10 ayı ərzində DİM-in apardığı imtahanlarda ümumilikdə 641 min 517 nəfər iştirak edib. Bir sıra dövlət qurumlarının nümayəndələri ilə yanaşı, müxtəlif tədris müəssisələrindən on minlərlə müəllim Mərkəzin əməkdaşları ilə birlikdə imtahanların idarə olunmasında iştirak edib.

Məleykə Abbaszadə əhaliyə DİM tərəfindən 7 milyondan çox elektron xidmət göstərildiyini diqqətə çatdırıb. Bu o deməkdir ki, imtahanda iştirak edən hər bir şəxs ən azı 10 dəfə DİM-in elektron xidmətlərindən faydalanıb.

Dövlət İmtahan Mərkəzinin tədris prosesində müəllimlərə dəstək vermək üçün bir sıra tədbirlər reallaşdırdığını bildirən DİM Direktorlar Şurasının sədri, eyni zamanda, bu il Bakı şəhəri üzrə 272, on dörd rayonda 60 elmi-metodiki seminarın təşkil olunduğunu vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov ümummilli lider Heydər Əliyevin təhsil sahəsinə daim böyük diqqət göstərdiyini, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən əzmlə həyata keçirildiyini bildirib.

Ardı Səh. 6

# Bakıda Azərbaycan müəllimlərinin XV qurultayı keçirilib

Əvvəli-Səh-5

Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən rektor son 15 ildə ölkəmizdə davamlı və inklüziv inkişaf üçün iqtisadi baza yaradıldığını söyləyib. Bildirib ki, Azərbaycan son illərdə bir çox davamlı inkişaf göstəriciləri və sosial indikatorlara görə “Böyük iyirmilik” və “Böyük yeddilik” ölkələrinin əksəriyyətini üstələyir. Respublikamızın inkişaf göstəriciləri bir çox beynəlxalq təşkilatların rəsmi sənədlərində təsdiqini tapıb.

Rektor innovativ inkişaf strategiyasının reallaşdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xüsusi rolunu vurğulayıb. Akademik Urxan Ələkbərov qeyd edib ki, ölkəmizin inklüziv cəmiyyət quruculuğu istiqamətində qazandığı uğurlarının başlıca amili təhsil və insan potensialının formalaşdırılmasıdır.

lərə qəbul olunub. On bir şagird respublika fənn olimpiadalarında qızıl və gümüş medallar qazanıb. Təkcə ötən il 342 nəfər ali məktəblərə qəbul olunub, həmçinin 29 məzun 600-dən yuxarı bal toplayıb. İki məzun orta məktəbi qızıl medalla başa vurub. Zamin Həziyev növbəti illərdə rayonun uğurlarında şəhid Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin də öz layiqli payı olacağına əminliyini bildirib.

Bakı Slavyan Universitetinin nəzdində Məktəb-Lisey Kompleksinin gənc riyaziyyat müəllimi Nigar Əliyeva ölkəmizdə gənclərin hərtərəfli inkişafına yaradılan geniş imkanlardan söz açıb. Qeyd edib ki, müəllimlik məsuliyyətli olduğu qədər şərəfli, çətin olduğu qədər maraqlı peşədir. Müəllim öyrətməklə yanaşı, daim öz üzərində çalışmalı və özü də öyrənməlidir. Dövrün çağırışlarına cavab vermək və gələcək nəsillərin daha







Bütün nailiyyətlərin əsasında bilik, biliyin əsasında təhsil dayanır.

“McKinsey” şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Kadir Sinan Köksoy Azərbaycanda bütün sahələrin, o cümlədən təhsil sisteminin uğurlarını vurğulayıb.

Qurultayda çıxış edən Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev rəhbərlik etdiyi təhsil ocağında 100-dək şagirdin biliklərə yiyələndiyini, pedaqoji kollektivin 23 nəfərdən ibarət olduğunu bildirib. O, bu məktəbin Təhsil Nazirliyinin elan etdiyi birinci qrant müsabiqəsinin qalibi olduğunu xatırladıb. “Azərbaycan Prezidentinin bilavasitə diqqət və qayğısının real nəticəsi olaraq müasir infrastrukturun yaradıldığı Cocuq Mərcanlı kəndində hər addımda hiss edilən böyük ictimai-sosial canlanma mövcuddur. Həyat öz axarı ilə davam edir. Artıq üzərindən məcburi köçkün adı götürülmüş xeyli sayda əhalinin yaşadığı kəndimizdə insanların təhlükəsizlik, əmin-amanlıq şəraitində özlərinə rahat məişət qurmaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli imkanlar təmin edilib”, - deyən Zamin Həziyev ümumtəhsil sahəsində görülən genişmiqyaslı işlərin Cəbrayıl rayonunda da vüsət aldığını bildirib. Qeyd edib ki, hesabat dövründə rayonun məzunlarından 1181 nəfəri ali məktəb-

xoşbəxt və daha sağlam yaşaması üçün gənc müəllimlərin mütaliə etməsi, təhlillər aparması, daha yaxşı öyrətmək üçün daha yaxşı araşdırma aparmaları vacib şərtdir.

Çıxışlarda XV qurultayın ölkəmizdə təhsil sisteminin inkişafına mühüm töhfələr verəcəyinə əminlik ifadə olunub, Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyası, müəllimin nüfuzunun daha da artırılması ilə bağlı təkliflər irəli sürülüb. Vurğulanıb ki, ölkədə davamlı olaraq aparılan məktəb tikintisi, məktəblərin maddi-texniki bazasının gücləndirilməsi, müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi nəticəsində əməkhaqqı artımı, işə qəbulun şəffaf təşkili bu peşəyə marağı ilbəil artırır.

Qurultayda “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda müəyyənləşdirilmiş hədəflərə nail olunması istiqamətində əldə edilmiş uğurlar, eləcə də 2013-cü ilin dekabrında keçirilmiş Azərbaycan müəllimlərinin XIV qurultayından sonrakı müddətdə təhsil sistemində reallaşdırılmış tədbirlər və islahatlar müzakirə olunub, qarşıda duran yeni vəzifələr müəyyənləşdirilib.

Tədbir çərçivəsində, həmçinin Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə “Əməkdar müəllim” fəxri adına layiq görülmüş və “Tərəqqi” medalı ilə təltif olunmuş 127 nəfər təhsil işçisinə dövlət mükafatları təqdim edilib.

Qurultay işini panel sessiyalarla davam etdirib. “Peşəyönümü işinin təşkili və peşə təhsilinin təbliği” mövzusunda sessiyada son beş ildə ölkəmizdə peşə təhsili sisteminin inkişafından danışılıb. Qeyd edilib ki, peşə təhsilinin maddi-texniki bazasının gücləndirilməsi və genişləndirilməsi istiqamətində dövlətimiz tərəfindən mühüm addımlar atılıb. Prezident İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda peşə təhsili ilə bağlı xüsusi müddəalar öz əksini tapıb, həmçinin 2016-cı ildə Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılıb. Peşə təhsilinin inkişafı ölkənin ixtisaslı kadrlara olan tələbatının ödənilməsi istiqamətində mühüm addımlardan biri kimi səciyyələnir. Ölkəmizdə peşə təhsili sistemində aparılan uğurlu islahatlar, peşə təhsilinin düzgün təbliği nəticəsində bu sahəyə maraq daha da artıb. Təhsil sistemində pedaqoji prosesin tərkib hissələrindən biri peşəyönümü işidir. Bu işin təşkilində ümumi məqsəd cəmiyyətin peşə maraqları və imkanları ilə əmək bazarının tələbatı arasında balansı müəyyənləşdirmək, gəncləri maraq və bacarıqlarına uyğun istiqamətləndirməkdir. Bu baxımdan peşə təhsili müəssisələri peşəyönümü işinin təşkilində və təbliğində yaxından iştirak edir. Peşə təhsili müəssisələrinin rasionallaşdırılması nəticəsində respublikamızda Peşə Təhsili mərkəzləri yaradılıb.

Qurultayın “Ümumi təhsil: bu günə və gələcəyə baxış. Ümumi təhsilin məzmunu”, “Ümumi təhsil: bu günə və gələcəyə baxış. Şagird nailiyyətlərinin qiymətləndirilməsi”, “Ümumi təhsil: bu günə və gələcəyə baxış. Müəllim və cəmiyyət”, “Ümumi təhsil: bu günə və gələcəyə baxış. Ümumi təhsilin idarə olunması”, “Ali təhsil: mövcud vəziyyət, perspektivlər”, “Təhsildə innovasiyalar” mövzularında panel sessiyalarında ölkəmizdə müvafiq sahələrin inkişafı istiqamətində görülən işlərdən danışılıb, qarşıda duran vəzifələr müəyyənləşdirilib. Sonda qurultayın qətnaməsi qəbul olunub.

Azərbaycan müəllimlərinin XV qurultayında ümumi təhsil, orta ixtisas və peşə təhsili müəssisələrindən 1400-ə yaxın, ali təhsil müəssisələrindən isə 200-dən çox nümayəndə iştirak edib. Azərbaycan müəllimlərinin ilk qurultayı 1906-cı ildə keçirilib. Qurultay ənənəvi olaraq 5 ildən bir keçirilir. Müstəqillik dövründə Azərbaycan müəllimlərinin 5 qurultayı keçirilib.

# Arsen Baqdasaryan: Evə qayıtmağıma kömək edin!



***Xəbər verildiyi kimi, 1994-cü il təvəllüdlü, 2014-cü il dekabrın 26-da Azərbaycan Respublikasının Ağdam rayonunda qoşunların təmas xəttində təxribata cəhd edərkən saxlanılmış və Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 5 may tarixli qətnaməsi ilə 15 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş erməni hərbi qulluqçu Arsen Eduardoviç Baqdasaryan "hamının-hamıya" prinsipi üzrə azadlığa buraxılması ilə bağlı Ermənistanın baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyana müraciət göndərib.***

AZƏRTAC xəbər verir ki, bununla bağlı noyabrın 28-də Arsen Baqdasaryan Azərbaycan KİV-lərinin suallarını cavablandırıb. Həmin müsahibəni oxuculara təqdim edirik.

**-Bildiyiniz kimi, Azərbaycan bütün hərbi əsirlərin və girovların "hamının-hamıya" prinsipi üzrə dəyişdirilməsi təklifi ilə çıxış edib. Lakin Ermənistan hökuməti nədənsə bunu etmək istəmir. Necə düşünürsünüz, Ermənistan bu humanist prinsipi niyə dəstəkləmir?**

-Mən Azərbaycan tərəfinin beynəlxalq təşkilatlar vasitəsilə rəsmi təklif göndərdiyini bilirəm. Bu barədə mənə Azərbaycanın səlahiyyətli orqanları məlumat veriblər. Lakin, təəssüf ki, erməni tərəfi mənim taleyimə biganə yanaşdı. Mənə göndərilən bildirişin mətnini oxuya bilərəm: "Arsen Eduardoviç, biz, Azərbaycan tərəfi beynəlxalq təşkilatlar vasitəsilə Ermənistana bütün hərbi əsirlərin və girovların "hamını-hamıya" prinsipi üzrə azad edilməsi barədə rəsmi təklif göndərmişik. Lakin, təəssüf ki, ordusunda xidmət keçdiyiniz erməni tərəfi Sizin taleyinizə biganə yanaşır". Axı, mən həyatımın iki il yarımını Qarabağ torpaqları uğrunda müharibəyə vermişəm, hərbçi sözləri ilə söyləsək, azərbaycanlılar üçün "düşmən", "rəqib" olmuşam və hər an məni öldürə bilərdilər.

**-Bizə məlum olduğu kimi, erməni tərəfi digər əsirlərin taleyi ilə də maraqlanır. Məsələn, Nikol Paşinyanın arvadı Anna Akopyan Karen Kazaryanın ailəsinə iki dəfə baş çəkib. Niyə məhz Sizə bu cür biganəlik göstərilir?**

-Ona görə ki, digərləri Ermənistan ərazisində doğulublar, mən isə keçmiş DQMV-nin paytaxtı Stepanakertdə - indiki Xankəndidə. Ermənistan üçün qarabağlıların heç bir dəyəri yoxdur, biz onlar üçün "Qarabağ eşşəkləriyik". Əgər Ermənistan məni bu respublikanın vətəndaşı hesab edirsə, onda erməni tərəfi Azərbaycanın müraciətinə müsbət cavab verməli idi.

**-Siz artıq kifayət qədər uzun zamandır ki, buradasınız. Sizin Nikol Paşinyana məktubla müraciət etməyiniz üçün suyu daşıran son damla nə oldu?**

-İlk növbədə, əlverişli siyasi mühit. 2016-cı ildən Azərbaycan tərəfi bütün hərbi əsirlərin və girovların "hamını-hamıya" prinsipi üzrə azad edilməsi təşəbbüsü ilə çıxış edir. O zaman "Qarabağ klanına" rəhbərlik edən Serj Sarkisyan hakimiyyətdə idi. Necə deyərlər, həbsxana insanı dözümlülüyə öyrədir və bu səbəbdən mən səbirlə gizləyirdim. İndi, Serj Sarkisyan və komandasının devrildiyi vaxtda, mən səlahiyyətli orqanlara mənə kömək göstərilməsi və Nikol Paşinyana xahişlə müraciət etməyim üçün buraya KİV nümayəndələrinin dəvət edilməsi barədə müraciət etməyə qərar verdim. Əslində, Azərbaycan tərəfi bu müraciəti göndərmək məcburiyyətində deyildi, axı, mən onların - Ermənistanda iyirmi ildən çoxdur təcavüzkar ölkə və humanizm göstərməyən tərəf kimi qələmə verilən Azərbaycanın düşməni idim. Əsl həqiqətdə isə, Azərbaycan tərəfi mənə qarşı humanizm nümayiş etdirir. Bəs erməni tərəfinin humanizmi harada qaldı? Bunu mənə kim izah edə bilər?

**-Azərbaycan tərəfinin təşəbbüsünü dəstəkləməsi üçün KİV-lər vasitəsilə Ermənistan rəhbərliyinə nə söyləmək istərdiniz?**

-Mən yalnız onu demək istəyirəm ki, əgər Nikol Paşinyan və onun həyat yoldaşı Anna Akopyan həqiqətən də öz xalqının qayğısına qalırlarsa, onda qoy Dilqəm Əsgərovu, Şahbaz Quliyevi və əsgər Elnur Hüseynzadəni azad etsinlər, Azərbaycan isə, öz növbəsində, doğmalarımız və yaxınlarımızla görüşmək üçün bizi sərbəst buraxır. Düşünürəm ki, erməni xalqı ölkə hakimiyyətindən Azərbaycan tərəfinin təşəbbüsünə müsbət cavab verilməsini tələb etməlidir.

**-Ermənistanda söz yayılıb ki, guya sizi söylədiklərinizi vərəqdən oxumağa məcbur edirlər. Bununla bağlı nə deyə bilərsiniz?**

-Söylədiklərimin hamısı öz fikirlərimdir. Mənə heç kim işgəncə verməyib və bunları deməyə məcbur etməyib. Hətta kameranı da çevirə bilərsiniz ki, divarlarda əvvəlcədən hazırlanmış heç bir mətnin olmadığı aydın görünsün. Görürsünüz, mən hər dəfə üzümü sual verən jurnalistə tərəf tuturam və təkcə kameraya deyil, həm də onun gözlərinə baxıram. Mən diktə altında heç bir söz söyləmirəm.

**-Yeri gəlmişkən, qoy bu sual sizin üçün standart səslənməsin. Sizin burada saxlanılma şəraitiniz necədir? Hər hansı xahişiniz varmı?**

-Mənim bir tək xahişim var - evimə qayıtmağıma kömək edin! Saxlanılma şəraitimlə bağlı deyə bilərəm ki, heç bir şikayətim yoxdur. Hətta mənə Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə doğmalarımla yazışmaq və "Skype"la danışmaq imkanı verilib. Səhhətimlə bağlı da heç bir problemim yoxdur. Dörd il ərzində, şükürlər olsun, bir dəfə də xəstələnməmişəm. Doğrudur, burada bizə ev yeməkləri vermirlər, amma qidalanma ilə bağlı hər şey normaldır. Hətta bir az kökəlmişəm.

Bundan başqa, mənə kitab oxumağa və sifariş etməyə də icazə verilib. Bu müddət ərzində rus və ingilis dillərində biliklərimi təkmilləşdirmişəm. Hazırda Çin dilini öyrənirəm.



# Azərbaycan ilə Rusiya arasında sərhəd nəzarətinin daha da gücləndirilməsinə dair müzakirələr aparılıb

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti (DSX) ilə Rusiya Federasiyasının Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti arasında 2018-2019-cu illər üçün Tədbirlər Planına uyğun olaraq müvafiq fəaliyyətlər uğurla davam etdirilir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Sərhəd Nəzarətinin rəisi, general-mayor A.Xəlilovun dəvəti ilə Rusiya Federasiyası Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidməti rəisinin müavini - Sərhəd Nəzarəti Departamentinin rəisi, general-polkovnik İqor Şmotkinin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 27-də Azərbaycana səfərə gəlib. Noyabrın 28-də Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Rusiya nümayəndə heyəti ilə görüşüb.

Görüşdə ikitərəfli əlaqələrin vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb, dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində etibarlı sərhəd nəzarətinin təşkilinin, transsərhəd cinayətkarlığın təzahürləri olan qaçaqmalçılığa və qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində əməkdaşlığın və qarşılıqlı əlaqələndirmənin davam etdirilməsinin, təcrübə və məlumat mübadiləsinin əhəmiyyəti vurğulanıb.

Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında imzalanmış Sazişə uyğun olaraq, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi kimi irimiqyaslı infrastruktur layihəsinin həyata keçirilməsi üçün mühüm əhəmiyyət kəsb edən Samur çayı üzərindən yeni avtomobil körpüsünün tikintisinin aparıldığı ərazidə sərhəd qurumları tərəfindən etibarlı sərhəd nəzarətinin təmin olunması məsələləri üzrə qarşılıqlı əlaqələndirmənin yüksək səviyyədə olması qeyd edilib. Həmçinin dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər və nəqliyyat vasitələri üzərində sərhəd nəzarətinin təkmilləşdirilməsinin, vətəndaşların dövlət sərhədindən keçmə prosedurlarının daha da sadələşdirilməsi ilə yanaşı, sərhəd təhlükəsizliyinin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Beynəlxalq Aeroportunda, Bakı Beynəlxalq Dəniz Ticarət Limanında sərhəd nəzarətinin təşkili və xüsusiyyətləri ilə tanış olub, sərhəd nəzarəti bölmələrinin xidməti-döyüş fəaliyyətinin müasir tələblərə uyğun aparılması məqsədilə tətbiq olunan qabaqcıl sistemləri və texniki vasitələri nəzərdən keçiriblər.

Azərbaycan və Rusiya nümayəndələri müsbət təcrübə mübadiləsi aparıb, əlaqələrin perspektivlərini müzakirə edib və sərhəd nəzarəti bölmələri arasında praktiki əməkdaşlıq tədbirlərinin davam etdirilməsinə dair razılığa gəliblər.

# Hindistan qəzeti "Atəşgah" məbədindən yazır: "Xoşbəxtlikdən, 500 illik məbəd öz multikultural keçmişini qoruyub saxlayır"

Hindistanın "The Hindu" qəzetində Azərbaycandakı "Atəşgah məbədi" haqqında məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə "Atəşgah məbədi"nin tarixindən, buraya üz tutan səyyahlardan, eləcə də bu gün "Atəşgah məbədi"nin Dövlət Tarix-Memarlıq Qoruğu kimi fəaliyyətindən bəhs olunur. Bildirilir ki, "Atəşgah"ı Hindistanla Avropa arasında mədəniyyətlərarası mübadilə, qloballaşma tarixinin bir parçası hesab etmək olar.

Qəzet Azərbaycanın Avropa ilə Asiyanı birləşdirən qədim İpək Yolunun bir hissəsi olduğunu vurğulayır.

Diqqətə çatdırılır ki, Bakının mərkəzinin 30 kilometrliyində, Suraxanı rayonu ərazisində yerləşən "Atəşgah məbədi", demək olar, bütün dünyada tanınır. Qədim dövrlərdə bu ərazidə atəşpərəstlərin məbədi yerləşib. Əbədi alova mistik əhəmiyyət verən atəşpərəstlər müqəddəs oda tapınmaq üçün buraya gəliblər. Diqqətə çatdırılır ki, XV-XVII əsrlərdə ticarət karvanları ilə Abşerona gələn atəşpərəst hindular Suraxanını ziyarət ediblər.



Hindli tacirlər qədim məbədin yerində yeni tikililər inşa ediblər. "Atəşgah məbədi"nin ən erkən tikilisi 1713-cü ilə aiddir. XVIII əsrdə məbədin ətrafında ibadətgah, hücrələr, karvansara inşa olunub. Yazıda vurğulanır ki, xoşbəxtlikdən, 500 illik məbəd hələ də qalır və öz multikultural keçmişini qoruyub saxlayır.

"Güman ki, Xəzər dənizinin sahilində yerləşən, əhalisinin əksəriyyəti müsəlman olan postsovet ölkəsi Azərbaycanda "Müdriklik tanrısı Qaneşa həmd olsun" ifadəsini görəcəyiniz ağlınıza gəlməz. Amma "Atəşgah məbədi"nin girişindəki daş arkanın üzərində ilk gözə dəyən ifadə məhz budur", - deyə məqalədə qeyd edilir. Bu məbəddə devanaqari əlifbası ilə 5 cərgə yazı yazılıb. Bu ifadələrdən bəziləri hinduizmdəki alov tanrısına ithaf olunub. Beşguşəli məbəddəki otaqların giriş hissəsində isə sanskrit və ya pəncab dillərində yazılar var. Onları bu regiona təxminən 500 il əvvəl səfər etmiş hindistanlı səyyahlar yazıb.

Məqalədə diqqətə çatdırılır ki, hələ VII əsrdə Azərbaycana səfər etmiş səyyahlar yazılarında "Atəşgah"ın adını çəkiblər. Bildirilir ki, "Atəşgah" 1969-cu ildə bərpa edilib. 1975-ci ildə kompleks muzeyə çevrilib. Bu gün məbəddə yerləşən hər bir otaq burada yaşamış zəvvarların və asketlərin hekayəsindən xəbər verir. Məbəd dünyanın hər yerindən turistləri cəlb edir.

# Mühacir dəllallar yenidən qırğında

Siyasi proseslərdə heç nə təsadüfi olmur. Bu, zaman-zaman deyilmiş və praktiki olaraq, təsdiqini tapmış məsələdir. Bu baxımdan, o da mümkün deyildi ki, siyasi-ictimai proseslərdə iştirakçı olmayan, mübarizə meydanlarında görünməyən ünsürlərin mühacir həyatı sürə-sürə Azərbaycan dövlətinə qarşı indiyədək rast gəlinməyən iyrənc formada fəaliyyətə başlasın. Özü də o "fəaliyyətə" ki, burada əsas prioritet Azərbaycan insanına, dəyərlərinə xas olmayan bir tərzdə söyüş, ağır təhqirlər "mübarizə" metodu seçilir və faktiki olaraq, "mənəvi terror" törədilir. Eyni zamanda, bu fəaliyyətdə Azərbaycanın düşmənləri - erməni lobbisi ilə eyni "ələ oynamaq" da açıq-aydın şəkildə prioritetlərdən biridir. Bu şərəfsizlər bu gün sirkin əməllərinə görə qrantlarla təmin olunur və bu qrantlar isə onları üz-üzə qoyaraq qırğına sıxırlır. Elə bu günlərdə Avropada yaşayan mühacirlərin qırğına çıxması deyilənlərin sübutudur. Atalar demişkən, "başqasına quyu qazan özü düşər".



*Aydın Mirzəzadə: "Bunların əməlləri kimi leksikonları da insanda ikrah və nifrət hissi doğurur"*

### Məhəmməd Mirzəli: "Tural Sadıqlı məni efirə çıxarıb, məndən pul qazandı"

Avropada yaşayan mühacirlər, yəni Məhəmməd Mirzəli və Tural Sadıqlını xaricdən alınan qrantlar biləşdirib. Bunun müqabilində isə onların qarşısına Azərbaycan dövləti əleyhinə kampaniya aparmaq məqsədi qoyulub. Ancaq qrantları bölüşdürməkdə bir-birinə kələk gəliblər. M.Mirzəli də sosial şəbəkədə T.Sadıqlı haqda nə bilirsə yazıb: "Mən heç zaman bunu yazmazdım, özün məcbur etdin. Sən özünü ifşa etmək qərarına gəldin davam elə. Mənim də deyəcəyim şeylər olacaq. Qrantı aldın, nə qrant verən təşkilatın adını açıqladın, nə aldığın qrantın məbləğini dedin, məni efirə çıxarıb, məndən pul qazandın. Mən də sənin bu əməlinə qarşılıq olaraq öz videolarımı "Youtube"dan sildirdim. Mən bu işləri pulsuz görən adamam, biz qrant gəlməsə belə birgə nəyəsə razılaşsaydıq, təbii ki, işlər görüləcəkdi. Amma məsələnin mahiyyəti budur ki, sən məndən istifadə etdin, "xalqın layihəsini də qrant" üçün etdin". Mən bu dəqiqənin özündə belə xalqın layihəsini etməyə hazıram, pulsuz-parasız gəl edək, digər səhifələri də çağıraq. Bir də yazmısan ki, yanımıza çəkdik, filan etdik. Mən öz işimi özüm həyata keçirmişəm".

M.Mirzəli daha sonra Tural Sadıqlını satqınlıqda da ittiham edib. Doğrusu, təəccüb etmədim. Çünki satqınlıq titulu olan Əli Kərimli kimi ünsürün maşası ilə oturub-duranların satqınçılığı haqqında danışmaq təəccüb doğurmur. İndi də M.Mirzəli T.Sadıqovun etdiyi satqınlıq haqqında danışır: "Sənin qardaşın iki kilo heroinlə şərlənir, azadlığa buraxılır və sonra da gəlir Almaniyaya. Sənin Bakıdakı fəaliyyətin barədə danışmağa başlasam, təmiz batarsan. Almaniyada etdiklərini isə saxlayıram ikinci yazıya".

Tural Sadıqlı isə Məhəmməd Mirzəlini nankorluqda ittiham edərək, bildirir ki, "ona təzyiq olan zaman dəstək olduğunu nə tez unudur".

### Aydın Mirzəzadə: "Pul müqabilində dövlət maraqlarını antimilli qüvvələrə satanlar öz cəzalarını alacaqlar"

"Azərbaycan cəmiyyətinə onların kimliyi çoxdan bəlli idi. Baş verən proseslər isə, bir daha onların kimlərə xidmət etdiyini açıq-aydın göstərdi". Bunu "Səs" qəzetinə açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, özlərini mühacir adlandıran şəxslərin Azərbaycan haqqında xoşagəlməz fikirlər səsləndirmələri onların küçə təfəkkürünə malik tullantılar olduğunu göstərir: "Siyasətdən, əxlaqdan və mənəviyyatdan uzaq olan bu adamların məqsədi ancaq qrantlardır. Bu gün Azərbaycan hüquqi dövlətdir və bütün məsələlər qanunla tənzimlənir. Mitinq keçirmək istəyən partiya və təşkilatlar üçün də imkanlar yaradılıb. Dövlətin ünvanına təhqirlər yağdıran bu ünsürlər başa düşürlər ki, ictimaiyyəti çaşdırmaq üçün atdıqları addımlar heç bir effekt verməyəcək və pul müqabilində dövlət maraqlarını antimilli qüvvələrə satanlar öz cəzalarını alacaqlar ".

A.Mirzəzadə onu da bildirib ki, bunlar təhqiri ya pul qarşılığında, ya da başqa məqsədlər naminə edirlər: "Azərbaycan əleyhdarlarının ikrah doğuran əməlləri bütün detalları ilə ortadadır. Onlar Azərbaycanın düşmənləridir. Bəs adını azərbaycanlı qoyaraq, onların dəyirmanına su tökən Vətən və millət dönüklərinin bu mənəviyyatsız, namərd əməllərinə nə ad vermək olar? Bunların əməlləri kimi leksikonları da insanda ikrah və nifrət hissi yaradır. Bu gün Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və xalq-iqtidar vəhdəti bu sabitliyi şərtləndirir. Azərbaycan xalqı rahat, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır. Azərbaycanda bundan sonra da ictimai-siyasi sabitlik təmin olunacaqdır. Azərbaycan xalqı xaricdən idarə olunan "5- ci kolon"un ölkəmizdə hansısa mövqelərə sahib olmasına heç vaxt imkan verməyəcək".

### Haqq nazilərə, amma üzülməz

Prezident yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor, millət vəkili Elman Nəsirov hesab edir ki, tarixi nailiyyətimiz olan ictimai-siyasi sabitliyi və təhlükəsizlik mühitini pozmağa çalışan, xaos və anarxiya istəyi ilə yaşayan, "bəlkə də qaytardılar" xülyası ilə nəfəs alan xarici anti-Azərbaycan siyasi dairələrə və onların əlində alətə çevrilmiş "sapı özümüzdən olan baltalar" mövcuddur: "Bu nailiyyətlərimizin əsasında hakimiyyət-xalq birliyi dayanır. Bax, bu birliyi pozmaq üçün həmin qüvvələr dəridən-qabıqdan çıxır, ölçüyəgəlməz səviyədə şər-böhtan kampaniyasına rəvac verir, tərbiyəsizlik, əxlaqsızlıq və şərəfsizliyin son nöqtəsinə enirlər".

Göründüyü kimi, satqının, şərəfsizin vicdanı olmaz. Sadəcə, zamanı, vaxtı çatanda bu şərəf və ləyaqətdən uzaq olan toplum mütləq öz əməllərinə görə cavab verməli olacaqlar.

**Rəfiqə HÜSEYNOVA**

---

## "Saakyanın səfərlərinə dəstək vermək kimsəyə başucalığı gətirməz"



**"Bako Saakyanın səfərlərinə dəstək vermək, qondarma, işğalçı, vandal rejimin rəhbərini viza ilə təmin etmək heç bir halda məntiqə sığmır və kimsəyə başucalığı da gətirməz. Üstəlik, proses, məram anlaşılan da deyil və ortalıqda çox qəribə durum yaranıb. Paşinyanı vururlar, amma Saakyanın səsini, hərəki diapazonunu qaldırmağa çalışırlar". Bunu SİA-ya açıqlamasında millət vəkili Elşən Musayev deyib.**

Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev üzv olmadığımız Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) üzərindən Ermənistanı öz müttəfiqləri vasitəsilə necə seyt-not vəziyyətə salıbsa qarşı tərəf özünə təcili kömək axtarır: "Halbuki hamıya gün kimi bəlli olan bir həqiqət var: Qondarma rejimin sükan idarəçiliyində özlərinə aid protez əl belə yoxdur. Hamısı yad barmaqlar, yad biləklərdir və ona görə də paralel xətdə KTMT məğlubiyyəti ATƏT-in Minsk Qrupunun vasitəsilə sığortalanır. Ən azından buna cəhd edilir ki, Ermənistan məlum cinahdan necə təkləndisə, Azərbaycanın da başını Dağlıq Qarabağ konfliktini həll etməyə məsul olan və bu missiya qrupuna daxil dövlətlərin qeyri-adekvat hərəkətləri ilə qatsınlar.

ATƏT-in Minsk qrupu ilə bağlı bir sıra şərhlər oxudum. Şəxsi qənaətimsə budur: Nə dövlətlər dəyişsin, nə də fərd olaraq subyektlər. Tək dəyişəsi şey təlimat və əsasnamədəki 2 hərfdir."Münaqişənin həll edilməsinə yönəlik fəaliyyət" cümləsinin "edilməsi" sözünə "mə" artırılsın, vəssalam. Olsun, "edilməməsi". Bütün mübhəmlərə də tam aydınlıq gəlsin. Çünki Ermənistan kimi işğalçı, vandal siyasət yürüdən dövlətin quyruq bulayanı olan bir rudiment qurumun rəhbərinə viza vermək, onun gəlişini - gedişini, görüşlərini demokratiya və beynəlxalq hüquq prinsiplərinə hayqırı formasında seyr etmək kənardan ədalət anlayışının Qaşıqçı kimi şaqqalanmasına bənzər asosiasiya yaradır. Saakyan kimi cəllad xislətlinin Xocalı qətliamını, soyqırımını tanıyan Parlamentlərin 100 km-lik radiusunda belə hərlənməsi absurddur. O ki qala, hələ rəsmi qiyafədə keçirilən separat görüşlər olsun. Bu adamın təyyarənin göyərtəsində Avropa məkanının hava axınına girməsi, ətrafa demokratiya dərsi keçən beynəlxalq təşkilatların, özündənmüştəbeh qurumların, yarımmaili təsisatların həndəvərinə belə fırlanması hüquq adına, ümumbəşəri dəyərlər adına xəyanətdir".

## Azər Həsrət: "Pul ötürən mərkəzlər artıq əllərini bunlardan üzdülər"



"Artıq bir neçə gündür ki, xaricdə yaşayan və Azərbaycan dövlətinə qarşı ardıcıl şəkildə kampaniya aparan şəbəkənin aparıcı nümayəndələri Məhəmməd Mirzəli və Tural Sadıqlı bir-birinə qarşı ifşaedici açıqlamalar verirlər. Biz bunlarla bağlı uzun müddətdir deyirik ki, adamların dərdi Azərbaycanda insan haqları, demokratiya və sairə deyil. Onların dərdin yalnız qarın davasıdır. Sadəcə onlar olaraq haradan daha çox pul qopara bilərik davasıdır. Yəni bu adamlar özlərini daha baha qiymətə satmaq üçün dəridən-qabıqdan çıxırdılar". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Onun sözlərinə görə, Avropada, Amerikada oturan ağaları onlara bu və ya digər şəkildə maliyyə ötürən mərkəzlər gördülər ki, adamların fəaliyyətinin heç bir effekti yoxdur: "Yəni Azərbaycan ictimai rəyinə bunlar təsir edə bilmirlər. Təsir edə bilmədiklərinə görə də onlara pul ötürən mərkəzlər artıq əllərini bunlardan üzdülər və üzüncə də təbiidir ki, ortada bir problem yarandı. Yəni başımızı hansı pulla saxlayaq və qarnımızı hansı pulla doyduraq. Ona görə də indi Məhəmməd Mirzəli və Tural Sadıqlı bir-birinin üstünə düşüblər. Onların iddia etdiyi əsas məsələ bir qıraqda qalıb və bir-birlərinin üstünə düşərək ittiham edirlər. Bu təbiidir. Çünki belə hal ilk dəfə baş vermir. Onlara qədər də bu və ya digər şəkildə bu cür proseslərdə adı hallanan xeyli şəxs olub. O şəxslər də bir müddət guya demokratiya, insan haqları və sairə uğrunda mübarizə apardıqlarını, cəfakeş kimi özlərini təqdim edirlər. Amma pulları tükənəndə təbii ki, o adamlar da tükəniblər və meydandan çəkilib gediblər. Niyə? Çünki ağaları pul vermir və pul vermirsə bizdə işləmirik. Bax, bunların əsl siması budur.

Biz Azərbaycanda uzun müddətdir ki, ictimai-siyasi fəaliyyətlə məşğuluq və media sahəsində çalışırıq. Şəxsən mən nə meydanlarda, nə bizim apardığımız o mübarizələrdə, nə də etiraz aksiyalarında Məhəmməd Mirzəli və Tural Sadıqlı adından adamlara heç vaxt rast gəlməmişəm. Bunların adını mən sadəcə olaraq Avropada oturub Azərbaycana qarşı təhqir kampaniyası apardıqları zamanı öyrənmiş oluram. Təbiidir ki, belə adamlarla bağlı qərar verəndə bizim ictimai rəyimizdə olan insanlar da, ictimaiyyətimiz də diqqətli olmalıdır ki, birdən-birə adamlar Avropada peyda olurlar və Azərbaycanda konkret şəxsləri, siyasi xadimlər, dövlət rəsmilərini söyməyə, təqhir etməyə başlayırlar. Sual olunur. Bunlar kim idi, haradan ortaya çıxdılar. Təbiidir ki, onların pulu kəsilincə də bir-birlərinin üzərinə düşməsi tam təbii haldır".

*Amerikanın nüfuzlu "beyin mərkəzləri"ndən olan "Stratfor" özünün 2019-cu il üçün geosiyasi proqnozlarını dərc etməyə başlayıb. Corc Fridmanın 1996-cı ildə əsasını qoyduğu bu analitik mərkəz qlobal geosiyasi dinamikaya başlıca olaraq ABŞ-Rusiya münasibətləri fonunda nəzər salıb. "Stratfor"un analiz və proqnozları Vaşinqtonla Moskva arasında bir neçə istiqamətdə meydana gələ biləcək problemləri göstərib və onları xarakterizə edib. Belə görünür ki, bütövlükdə 2019-cu ildə geosiyasi mənzərə daha gərgin məqamlarla xarakterizə oluna bilər. Belə ki, Amerika ilə Rusiya sanksiyalarda, silahlanma məsələsində, keçmiş sovet respublikalarından öz xeyirlərinə istifadə etməkdə qarşı-qarşıya gələ bilərlər. Bu məsələlərin hər biri ilə bağlı onlar arasındakı münasibətlər xüsusilə gərgin olacaq. Biz problemin bu aspekti üzərində geniş dayanmağa ehtiyac gördük.*

# Təhlükəli proqnozlar: "Stratfor" ABŞ-Rusiya qarşıdurmasının gərgin məqamları haqqında




## "Worldview" platforması: qlobal trendlərə "Stratfor"un yeni yanaşması

"Stratfor" dünyada tanınmış strateji təhlil və proqnozlaşdırma mərkəzidir. Onu mütəxəssislər Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) "kölgə" strukturu da adlandırırlar. Bu təşkilatın 100 işçisi var ki, onların da əksəriyyəti Amerika kəşfiyyatı ilə bağlı adamlardır. "Stratfor"un keçmiş baş direktoru Deyv Sikoranın rəhbərliyi ilə "Worldview" platforması hazırlanıb. Mütəxəssislərin fikrincə, bu platforma qlobal trendləri daha dərin və geniş analiz etməyə imkan verir. Bu təşkilatın 2019-cu il üçün proqnozları da yuxarıda vurğulanan məqamlar işığında xüsusi əhəmiyyət kəsb edib maraq doğurur (bax: The U.S. Zeroes in on Russia's Borderlands / "Stratfor", 15 noyabr 2018).

Proqnoz-analitika bir sıra məsələlər üzrə qlobal trendlərin təqdimatını və onların mümkün geosiyasi nəticələrinə dair proqnostik tezisləri əhatə edir. Maraqlıdır ki, bütövlükdə problem ABŞ-Rusiya qarşıdurması kontekstində qoyulub. Müəlliflər hesab edirlər ki, bu iki böyük dövlət arasındakı münasibətlər 2019-cu ildə daha gərgin olmaqla böyük bir geosiyasi məkanda ümumi dinamikanı müəyyənləşdirəcək.

Məruzə müəllifləri məsələni məhz bu kontekstdə qoyduqlarının səbəbini izah etmirlər. Ancaq problemin analizinin əsas tezisləri göstərir ki, burada konkret məqsəd vardır. Əvvəla, "Stratfor" hesab edir ki, 2019-cu ildə dünya miqyasında başlıca oyunçular kimi ABŞ və Rusiya özünü göstərəcək. İkincisi, Amerika dünya liderliyini daha da gücləndirmək uğrunda mübarizə aparacaq. Üçüncüsü, ona bu prosesdə mane ola biləcək əsas qüvvə Rusiyadır. Dördüncüsü, Vaşinqton qalib gəlmək üçün konkret fəaliyyət planına malikdir. Onun əsas fərqli cəhəti Rusiyaya yaxın ərazilərdən Kremlə təzyiqləri tədricən, lakin davamlı olaraq artırmaqdan ibarətdir.

Bu təzyiqlər üç istiqaməti əhatə edə bilər. Onlardan ilk sırada dayananı ABŞ-ın sanksiyalar siyasətini inkişaf etdirməsidir (bax: əvvəlki mənbəyə). "Stratfor"un qənaətinə görə, yaxın bir neçə ayda ABŞ Rusiyaya qarşı yeni sanksiyalar tətbiq edəcək. Lakin bu tədbirlərin miqyası Konqreslə Tramp administrasiyası arasında diskussiyaların və kompromislərin nəticəsindən asılı olacaq. Rusiya özünün maliyyə sabitliyini saxlamağa çalışacaq. Bunun üçün o, sanksiyaların təsirindən qorunmağa xidmət edən strategiya çərçivəsində öz iqtisadi əlaqələrini genişləndirməkdən istifadə edəcək. Bu, ən azı yaxın perspektivdə Moskvaya ciddi iqtisadi sillələnmələrdən yaxa qurtarmağa imkan verəcək (bax: Why the U.S. Will Keep Russian Sanctions on Simmer, Not Boil / "Stratfor", 27 avqust 2018). Deməli, Vaşinqton meydana çıxan təhlükələr fonunda Rusiyaya gələn il daha çox iqtisadi-ticari məhdudiyyətlər tətbiq edə bilər.

İkinci istiqamət silahlanma yarışının yeni səviyyəyə yüksələ bilməsi ilə bağlıdır. Amerikanın Avropada orta və qısa mənzilli raketlər haqqında müqavilədən çıxması yeni silahlanma prosesinə təkan verir. Nəticədə, Avropa yenidən ABŞ və Rusiyanın orta mənzilli raketlərinin əhatəsində qalmış olacaq. Eyni zamanda, bu vəziyyət Amerikaya Çin və Rusiyaya meydan oxumaq üçün nəhəng raket arsenalı yaratmağa imkan yaradacaq. Müqavilənin pozulması böyük dövlətlər arasında silahlanma yarışının güclənməsinə aparıb çıxaracaq ki, strateji hücum silahlarının ixtisarı və məhdudlaşdırılması ilə bağlı müqavilənin də gələcəyi təhlükəyə atılmış olacaq (bax: The U.S. Withdrawal From the INF Treaty Is the Next Step in a Global Arms Race / Stratfor, 22 oktyabr 2018).

## İki gücün sıxışdırılması: Rusiya və Aİ-yə "tələ"

Etiraf etmək lazımdır ki, bu proqnoz özünü doğruldarsa, bütövlükdə dünya üçün ciddi risklər meydana gələ bilər. İlk növbədə, Avropanın təhlükəsizliyi ilə bağlı qeyri-müəyyənliklər artar. Məsələ həm də Avropa İttifaqının ayrıca öz ordusunu yaratmaq arzusu ilə bağlıdır. Brüssel bu prosesi reallaşdırmağa başlasa, onda "Qoca qitə"də faktiki olaraq üç böyük güc qarşı-qarşıya gəlmiş olacaq: ABŞ, Rusiya və Aİ! Onların ortaq dil tapmaq imkanları barədə fikir bildirmək çox çətindir. Lakin qarşıdurmanın vəziyyəti kifayət qədər mürəkkəbləşdirəcəyi şübhə doğurmur.

"Stratfor"un proqnozundan görünür ki, Vaşinqton belə bir gərginliyin yaranmasında maraqlıdır. Bunun da iki tərəfi vardır. Birincisi odur ki, ABŞ Rusiyanı yeni silahlanma yarışına sürükləyir. Bu, iqtisadi vəziyyəti ürəkaçan olmayan Moskva üçün əlavə xərclər deməkdir. Sanksiyaların tətbiqi Rusiyanın imkanlarını məhdudlaşdırdığından, onun inkişafı üçün əngəllər də meydana gələ bilər.

İkinci tərəf Amerikanın Avropanı "cəzalandırması" ilə əlaqəlidir. Son illər Aİ-nin böyük dövlətləri olan Fransa və Almaniya Amerikadan asılı olmayan siyasət yeritməkdən bəhs edirlər. O cümlədən təhlükəsizlik sahəsində öz planlarını reallaşdırmaqda qərarlıdırlar. Bu yaxınlarda Fransa Prezidenti Emmanuel Makron öz fikrini bildirmişdi. Angela Merkel də ona dəstək vermişdi. Deməli, "Stratfor" hesab edir ki, Amerika prosesləri diqqətlə izləyir. Vaşinqton bir gedişlə Rusiya və Aİ-ni ağır silahlanma yarışına çəkir.

"Stratfor" vurğulayır ki, ABŞ-ın Rusiyanın qarşısına çıxarmaq istədiyi problemlər bunlarla məhdudlaşmır. Vaşinqton Rusiyaya Şərqi Avropa ölkələri, habelə Cənubi Qafqaz və Mərkəzi Asiyanı əhatə edən keçmiş sovet məkanı vasitəsilə təzyiq göstərmək planına da malikdir. Bu, üçüncü istiqaməti təşkil edir. Bizcə, geosiyasi baxımdan və Cənubi Qafqazın gələcəyi aspektində bu məqam daha çox əhəmiyyət daşıyır.

"Stratfor" problemin bu cəhəti üzərində geniş dayanır. Lakin məntiq eynidir - Amerika hər üç istiqamətdən Rusiyanı sıxışdırmaqla özünün geosiyasi üstünlüyünü təmin etməyə cəhdlər göstərəcək. Artıq onun bunlarla bağlı atdığı addımlar vardır. Bu sırada Ukrayna, Gürcüstan və Ermənistan faktorlarını vurğulamaq olar (bax: The U.S. Zeroes in on Russia's Borderlands / Stratfor, 15 noyabr 2018).

Ukraynanın Rusiya ilə münasibətləri çox gərginləşib. Son olaraq Kerç yaxınlığında iki ölkənin donanmaları arasında meydana gələn gərginlik fonunda bu tendensiyanın daha da güclənə biləcəyi ehtimalı az deyil. Krım və Donbas məsələləri Vaşinqtona Ukrayna-Rusiya münasibətlərini nəzarətdə saxlamağa imkan verir. Bu üsulla Rusiyaya təzyiqlərin artması mümkündür.

Digər həssas məkan Gürcüstandır. Gürcüstan geosiyasi məsələlərdə Qərbin tərəfindədir. Abxaziya və Cənubi Osetiya ilə bağlı da Tbilisinin Moskvaya iradları çoxdur. Bu səbəblərdən Amerikanın Gürcüstan faktorundan yararlanmağa çalışacağına inam böyükdür. Bunun ən çox müasir silahlar və hərbi təlimlər vasitəsilə ola biləcəyi ehtimal edilir. "Stratfor" analitikləri də bu fikri bölüşürlər. Nəhayət, Amerikanın Ermənistandan istifadə edəcəyi barədə "Stratfor" açıq fikir ifadə edir. Analitik mərkəz hesab edir ki, ABŞ Ermənistana silah sata bilər. Bu məsələdə o, Rusiyaya rəqib kimi meydana çıxar. Digər tərəfdən, Vaşinqton Nikol Paşinyan vasitəsilə Ermənistanda siyasi rejimi özünə tərəf çəkməkdə davam edəcək. "Stratfor" reallıqda Ermənistanın ikili mövqe tutacağını vurğulayır, lakin hər bir halda Vaşinqtonun bu kiçik forpost ölkəni şirnikdirməkdə davam edəcəyini proqnozlaşdırır.

Bütün bunların fonunda Amerikanın Azərbaycan və Mərkəzi Asiya dövlətləri ilə bağlı hansı taktika və strategiyanı seçə biləcəyi məsələsi də aktual görünür. "Stratfor" bu aspektə də ciddi yer ayırıb. Onların təhlili geniş aparılmalıdır. Bu, bizim üçün başqa məqalənin mövzusudur.

**Newtimes.az**

# “Armenianreport”: “Paşinyan demaqogiya və populizmlə məşğuldur”



***Əgər Paşinyan bundan sonra da demaqogiya və populizmlə məşğul olacaqsa, onda “Sasna Srer”in (siyasi partiya-R.R.) bədbinliklə proqnozlaşdırdığı kimi, yeni parlamentin ömrü il yarım, iki il sürəcək. Bu barədə “armenianreport” saytının təhlil bölməsində “Paşinyanın əriyən reytinqi və xalqın səbrsizliyi” başlıqlı məqalədə qeyd olunur. Erməni müəllif, bununla yanaşı, qeyd edib ki, hələ 6 ay qabaq onlar öz yazılarında Nikol Paşinyan hökumətinə xəbərdarlıq ediblər:***

“Nikol Paşinyan hökumətini xəbərdar etmişdik ki, onun ictimaiyyət arasındakı populyarlıq zenitində qalması baxımından, eləcə də, vaxt ehtiyatında çox zamanı qalmayıb ki, uzun illərdir ki, çökmüş erməni iqtisadiyyatında islahatlara başlasın. Biz xəbərdarlıq etmişdik ki, bir siyasətçi üçün reytinq və populyarlıq keçicidir, ona görə də, qısa zaman kəsimində, iqtisadiyyatı dirçəltmək vacibdir...”

### Küçədən gələn erməni siyasətçisinin ətrafı seyrəlir

“Paşinyan və ətrafı yeni hakimiyyət üçün qiymətli vaxtlarında real iş görmək yerinə, daha çox öz opponentləri ilə elementar demaqogiya vasitəsi ilə hesablaşmağı üstün tutdular. Nəticədə, şəxsən Paşinyanın reytinqi yavaş-yavaş əriməyə başladı. Buna sübut kimi, noyabrın 24-də N.Paşinyanın rəhbərliyi ilə keçirilmiş yürüşü göstərə bilərik. Bu yürüş təxminən 9,5 saat çəkdi. N.Paşinyan qısa nitqlə çıxış edərək dedi ki, bu, eyni zamanda, bütün mümkün səhvlərin və yanlışlıqların günahının yuyulması yürüşü idi” deyə erməni müəllif xatırladır.

Həmçinin, bildirilir ki, ona əvvəlki kimi dəstək verməyə kifayət qədər az adam toplaşmışdı: “Və bu da gözlərə dəyirdi. Hətta Paşinyanın ən qatı tərəfdarları istəməsələr belə, etiraf etdilər ki, ölkədə hakimiyyət dəyişikliyinə səbəb olmuş inqilab eyforiyası yox olmağa başlayıb. Bunun səbəbləri çox aydındır - ölkədə çoxsaylı problemlər var və yeni hakimiyyət onları həll eləməyə hazırlaşmır...”

### Xalqın adından danışır, amma xalq üçün heç nə etmir, və xalqın səbri tükənməz deyil

Sözügedən məqalədə bildirilir ki, əhali öz həyatında yaxşılığa doğru dəyişiklikləri hiss etməyib və hiss edə də bilməz, çünki bunun üçün iqtisadiyyatın həyata tətbiqi maliyyə sektorunun sağlamlaşdırılması lazımdır ki, bu da baş verməyib. “Paşinyanın fəaliyyətinə baxarkən, şəxsən məndə belə bir təəssürat yaranır ki, o, hələ də özünü inqilab lideri, küçə etirazçısı kimi hiss edir, bir hökumət başçısı olmağından başqa və ölkə siyasətinə cavabdeh olan şəxs kimi hiss edir. O, populizm və demaqogiya ilə məşğul olmaqda davam edir, lakin xalq üçün real, səmərəli nəticələr yoxdur, hansı ki, xalqın adından danışmağı sevir. Biz, heç nə görmürük” deyə erməni müəllif yazır və əlavə edir ki, Paşinyanın reytinqinin aşağı düşməsi kifayət qədər qanunauyğun prosesdir: “İnsanlar Sarkisyan rejiminə nifrət edərək, uzun illərdir yığılıb-qalmış buxarı çıxartdılar və artıq 7 aydır ki, həyat səviyyələrinin yaxşılaşmasını gözləyirlər. Lakin əvvəllər olmadığı kimi, indi də bu səviyyə yoxdur. Artıq əhalinin müəyyən hissəsində Paşinyana və onun hakimiyyətinə qarşı narazılıqlar formalaşmağa başlayıb. Ona görə də, şənbə günü keçirilmiş yürüşə az adam qatıldı ki, Paşinyan daha çoxuna ümid edirdi. Bütün bu prosesləri cəmiyyətdə hakimiyyət fiksiyalaşdırır. Bu baxımdan, növbədənkənar seçkilərə tələsirlər. Hələ may ayında Paşinyan dəfələrlə bəyan edirdi ki, seçkilər 2019-cu ilin yazında keçirilməlidir, lakin sonradan o öz düşüncəsini dəyişdi. Niyə? Bunun cavabı bəllidir - parlament seçkiləri nə qədər mümkündürsə tez keçirilməlidir, çünki 2019-cu ilə qalarsa, bu, Paşinyanın əleyhdarlarına toparlanmağa, qruplaşmağa və inqilabın buraxdığı boşluqlarından istifadə etməyə imkan verəcək. Bax, ona görə də seçkilərə tələsir”.

Beləliklə, Paşinyanın reytinqinin aşağı düşməsini tam təfsilatı ilə anlatmağa çalışan müəllif, son olaraq qeyd edir ki, onun parlament seçkilərinə qatılaraq qələbə qazanması hələ ki, mümkündür, lakin xalqın səbri tükənməz deyil. “Əgər Paşinyan həlledici addımlar atmayıb, bundan sonra da demaqogiya və populizmlə məşğul olacaqsa, iqtisadiyyat və daxili siyasətdə, eləcə də, xarici siyasətdə nəticələr əldə etməyəcəksə, onun vəziyyəti heç də yaxşılığa doğru dəyişməyəcək” deyə erməni müəllifi qeyd edib və bildirib ki, bütün bunlar inqilab ideyalarının da puç olması ilə başa çatacaq və Paşinyan getməli olacaq.

***Rövşən Rəsulov***

# Erməni psixologiyası

***Xalqların tarixi araşdırmalarını apararkən, mütləq onların psixologiyasını da nəzərdən keçirmək lazımdır. Ən maraqlısı isə budur ki, biz müxtəlif xarici tədqiqatçıların ermənilər haqqında elmi əsərlərinə, hərbi arayışlarına nəzər saldıqda, onların bir ortaq nöqtəyə gəldiklərinin şahidi oluruq. Bu ortaq fikir isə ermənilərin “fərdilik “və “milli hisslərinin” inkişaf etmiş olduğu fikridir.***



Ermənilərdə fərdilik hər şeydən öndə dayanır. Ermənilər erməni olmaqları ilə fəxr edirlər. Erməni ideoloqlarından olan Ovanes Kaçaznuninin dediyinə görə, erməni xalqı özünə aşiqdir. Guya hər bir erməni öz xalqının gələcəyi haqqında fikirləşir. Ermənilər iddia edrlər ki, “Birinci Dünya müharibəsindən əvvəl toplumları beynəlxalq müstəvidə böyük siyasi bir rol oynamamışlarsa, bu vəziyyət onların Osmanlı Dövləti və Rusiya arasında bölünmüş olmalarından qaynaqlanmışdır. Ermənilərdə fərdilik duyğusunu ilə milliyyətçilik duyğusunun birləşməsi onları terror və separatizm yolu ilə dövlət qurmaq axtarışlarına vadar etmişdir. Bu axtarışları intensivləşdirən isə xaricilərin təşviq və təhriklər olmuşdur .

Müxtəlif müəlliflərin əsərlərində ermənilərin “xəyanətkar” “hiyləgər” olduqları aşkara çıxır. Orest Yevetskinin dediyi kimi “hiyləgər” və bəzən də “oyunbaz” olmaq, hamının bildiyi kimi, ermənilərə məxsusdur.

Alman səyyahı Alfred Kyorte deyir : “Sizi Anadolunun hər hansı bir yerində aldadıblarsa, demək, siz ermənilərlə iş görmüsünüz”. Bu sözlər ermənilərin necə hiyləgər olduğunu sübut edir.

Fransız yazıçısı Aleksandr Düma yazır: “Qafqazda yaşayan hər xalqın özünəməxsus xüsusiyyətləri vardır. Fars ipək ticarəti edər, ləzgi xalça satar, azərbaycanlı silah satar, erməninin konkret bir xüsusiyyəti yoxdur, satılan hər şeyi satar, hətta satılmayanı da”.

Türkün verdiyi söz notariusda təsdiq edilmiş yazılı sənəd kimidir. Bunu Türkiyədə işləmiş rus generalı Vladimir Teofiloviç Mayevski də təsdiq edir. Ermənilər həm də çox “mənfəətpərəst “və “fürsətcil”dirlər. Bunu rusların və hətta ermənilərin özləri belə etiraf edirlər. Ermənilərin bütün davranışlarının kökündə mənfəətpərəstlik dayanır. Ermənilər aldatmağa çox meyillidirlər. XIX əsrin ortalarında yaşamış rus zabiti Prujanovski tərəfindən yazılmış arayışda deyilir ki, “ermənilər Rusiya hökumətinə sadiqdirlər və bizə xəyanət edə bilməzlər, sakitcə yaşayırlar, ara-sıra hallarda talançılıq edirlər, ancaq aldatmağa çox meyillidirlər”. Ermənilər qarşılarına qoyduqları məqsədə, ağırlıq dərəcəsinə baxmadan, çatmaq istəyirlər. Ermənilərin öz dinlərinə olan “sədaqəti”onları birləşdirən amil hesab olunur. Bunu erməni yazar A.Canşiyevin “Türkiyədə yaşayan ermənilərin özlərini “hayhristonya” (erməni -xristian ) adlandırması da bunu sübut edir. Erməni tarixinə nəzər salsaq, onların gizli terror təşkilatı qurma bacarığının son dərəcə mükəmməl olduğunu görə bilərik. Onlar pərakəndə halda deyil, nizam-intizamlı şəkildə təşkilatlanmağı bacarırlar. Bu özünü iqtisadiyyat və digər sahələrdə də göstərir. Ermənilər öz lehinə ictimai rəy formalaşdırma məsələsində də xeyli bacarıqlıdırlar. Erməni mətbuatı həmişə “yanlış istiqamətləndirilmiş təbliğatı” seçərək, ictimaiyyəti aldatmışlar. Gürcü yazıçısı İ.G.Çavçavadze 1902-ci ildə qələmə aldığı əsərində erməni tarixçilərinin “aldadıcı, yalan məlumatlardan” istifadə etməklə, oxucuları aldatmaqda xeyli usta olduqlarını vurğulamışdır.

Ermənilərin davranış psixologiyasının ortaq nöqtələri nəzərə alındıqda, onların həyəcanlı, emosiyalı olmaları ilə yanaşı, istiqamətləndirməyə, idarə edilməyə meyilli olduqları da diqqət çəkməkdədir. Elə buna görə də, Rusiya və ABŞ kimi dünya gücləri qeyri-müsəlmanlar arasında xüsusi olaraq, erməniləri seçərək öz siyasi məqsədləri naminə Türkiyə və Azərbaycan üzərində milli maraqlarını gerçəkləşdirmək üçün onlardan istifadə etməyə çalışmışlar.

***Zülfiyyə Hüseynova,***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti Tarix və coğrafiya fakültəsinin tələbəsi***

# “Xaricdə fəaliyyət göstərən şəbəkə özünü parçaladı”



“Hesab etmək olar ki, xaricdə Azərbaycana qarşı kampaniya fəaliyyət göstərən şəbəkənin son günlər yenidən fəallaşmağa göstərdiyi cəhd onların fəallaşmaq istiqamətində sonuncu cəhdlərindən biri ola bilər. Çünki, bu fəallaşmaq cəhdi bir sıra nüansları ortaya qoyur”. Bu fikirləri SİA-ya açıqlamasında “Bakı-Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

O bildirib ki, sözügedən dalğaya daxil olan şəxslərin son günlər bir-birilərinə qarşı ittihamlar yağdırması, kimin haradan, nə zaman, nə qədər məbləğdə qrant alması, hansı istiqamətlərdə xərcləməsi, hansı hissəsinin işə və ya şəxsi məqsədlər üçün sərf olunması ilə əlaqədar deyilənlər onların iç üzünü ortaya qoyur. Onun sözlərinə görə, hələ əvvəllər ölkəmizdə bir çoxları və ya əksər ekspertlər xaricdə fəaliyyət göstərən həmin şəbəkənin müəyyən siyasi mərkəzlərin və maliyyə donorlarının gizli göstərişi ilə hərəkət etdiklərini iddia edən zaman onlar bunu qəbul etmək, yaxına buraxmaq istəmir, var gücləri ilə inkar edirdilər: “Lakin bu gün baş verən hadisələr və onların bir-birilərinə qarşı ağır ittihamlar yağdırması, qəti şəkildə sübut edir ki, həqiqətən də onlar müəyyən mərkəzlərin təsiri altında olub. Sadəcə bu gün onların fəaliyyətinin mahiyyəti açılır”.

A.Quliyev söyləyib ki, bu hadisə Azərbaycan cəmiyyəti tərəfindən gözlənilən idi: “Çünki,cəmiyyətin böyük əksəriyyəti öncədən də hesab edirdilər ki, Azərbaycan dövlətinə qarşı, xaricdən idarə olunan çirkin qarayaxma kampaniyaları nəticə verə bilməz. Belə addımların,bu cür fəaliyyətlərin ölkədə sosial bazası yoxdur. Amma ciddi nəticə çıxarmaq üçün əsaslar var. Bunlardan biri odur ki, xaricdə fəaliyyət göstərən bu şəbəkənin parçalanması onların vahid bir ideologiyaya, siyasi platformaya yox, ancaq hansısa məqsədlərdən aldığı təlimat və maliyyə ətrafında hərkət etdikləri sübut olundu. İkincisi onların azərbaycanda hər hansı sosial bazasının olmadığı aşkar görsəndi. Bizim cəmiyyətimizi parçalamaq cəhdləri süquta uğradı. Əksinə onlar özləri parçalandılar”.

Baş redaktor qeyd edib ki, baş verənlərdən sonra artıq xaricdə bu cür şəbəkələrə böyük ümidlər bəsləyən və onların müəyyən təlimatlarla ortaya çıxarmaq istəyən qüvvələr də çox şeyi anlamağa məhkumdurlar: “Çünki, başa düşməlidirlər ki, cəmiyyətdən hansısa səbəblərdən özünü kənarda qoyan və kimlərinsə maliyyəsi əsasında fəaliyyət göstərən adamlardan heç bir planın sona qədər icraçısı qismində bəhrələnmək olmaz. Yəqin ki, yaxın gələcəkdə xaricdə Azərbaycana qarşı qarayaxma kampaniyası ilə məşğul olan şəbəkələrin yaradılması prosesi tamamilə zəifləyəcək. Çünki bu prosesin arxasında dayanan və ondan bəhrə gğtürmək istəyən qüvvələr artıq belə şəxslərlə bu cür qüvvələrlə işləməyin heç bir perspektivinin olmadığını yəqin ki anlayacaqlar. Ona görə də mən bu şəbəkənin fəaliyyətindəki son nüansları onların sonuncu fəaliyyət dalğaları kimi xarakterizə etdim”.

***Nailə Məhərrəmova***

# Qrant davası gözlənilən idi

## *Və ya Azərbaycan əleyhinə pula satılanlar daha öncələr də didişib-qapışıblar*



Uzun illərdir ki, Avropada klaviatura arxasında oturub, Azərbaycan əleyhinə "qəhrəmanlıq" edənlərin iç üzləri açıldı. Əslində, kimsəyə sirr deyildi ki, onlar bu kimi çirkin kampaniyalarını, məhz qrantlar müqabilində həyata keçirirdilər. Müxtəlif maliyyə fondlarının, Sorosun və digər donor təşkilatlarının əlaltılarına çevrilən sosial şəbəkə mafiyası barədə daha öncələr də kifayət qədər ciddi faktlar mövcud idi. Xüsusilə, son günlər üzə çıxan fakt - Məhəmməd Mirzəli ilə Tural Sadıqlı arasındakı pul davası əvvəllər onların aralarında baş verən bənzər davaların davamı kimi də qiymətləndirilə bilər. Ümumiyyətlə, dövlətimiz əleyhinə yönəlmiş şər və böhtan kampaniyaları məntiqi nəticə ilə ifşa olunmalıydı. Nə qədər qəribə görünsə də, bu ifşanı elə öz əlləri ilə etdilər.

### Ən ağır söyüşlərlə bir-birlərini təhqir edənlər barədə faktlar kifayət qədərdir

Bir-birlərinin aldıqları qarantlarını hesablayanlardan, kirli qazanclarını bölüşdürə bilməyənlərdən, ümumiyyətlə, bir-birlərini həzm etməyənlərdən başqa hər hansı bir işi də gözləməyə dəyməzdi.

Elə də uzağa getməyərək, "Meydan" TV-nin rəhbəri Emin Milli ilə Orduxan Teymurxanın arasındakı qalmaqalları, dava-şavaları da xatırlaya bilərik. Məhz həmin vaxtda da aralarındakı qrantları bölüşdürə bilməyən bu iki xəyanətkar ünsür sonda ən ağır söyüşlərini bir-birlərinə yağdırdılar. Ətrafında olanlar da, söz yox ki, bu söyüşlərin tərkib hissələrinə çevrildilər. Bu gün M.Mirzəli ilə T.Sadıqlı arasındakı pul-para davamı bunların davamıdır.

### Bu, onların əsl sifətləridir - maskaları yırtılmış simasız sifətləri...

Daha bir fakt budur ki, özlərini "demokratiya carçısı", "mübariz insan" və s. kimi təqdim edənlər, həqiqi mənada, siyasi dəllallardırlar. Onlar üçün heç vaxt dövlət, vətən və xalq amili mövcud olmayıb. Onu da qeyd edə bilərik ki, müəyyən erməni lobbilərinin təsirləri altında fəaliyyət göstərən donor təşkilatlarla da əl altdan iş görən bu ünsürlər erməni dəyirmanına su tökməklə, erməni çörəyi yeyənlərdirlər.

Daha bir fakt isə, onların keçmişləri ilə bağlıdır. Artıq, O.Teymurxanın verbovka olunmuş casusluğu barədə kifayət qədər dəlillər və sübutlar mətbuatda işıqlandırıldı. O cümlədən, T.Sadıqlının bir ailəni necə aldadaraq, necə məhv etməsi haqqında da dəlillərsübutlar saytımız tərəfindən işıqlandırılmışdı. Habelə, M.Mirzəlinin qaranlıq keçmişi ətrafında mediada müəyyən dəlillər sübuta yetirilmişdi. Belə olan vəziyyətdə, onların qrant üstündə qapışmaları təəccüb doğurmamalıdır. Yəni bu, onların əsl sifətləridir - maskaları yırtılmış simasız sifətləri...

**Rövşən RƏSULOV**

# Mühacirlər bir-birini ifşa edirlər

***Avropada mühacir həyatı yaşayan Məhəmməd Mirzəli və Tural Sadıqlı bir-birlərini ifşa edən açıqlamalarla çıxış ediblər. Hər zaman Azərbaycana qarşı şər-böhtanları ilə sosial şəbəkələrdə tanınan tərəflər bir-birini ayrılan qrantları mənimsəməkdə günahlandırıblar. Sual yaranır, nə baş verdi ki, bu ünsürlərin biri digəri haqqında ifşaedici faktlar açıqladılar? Söhbət etdiyimiz müsahiblərimiz məsələnin kökündə maddi maraqlar dayandığını və ayrılan maliyyə vəsaitini bölə bilməmələri tərəflər arasında problemlər yatdığını bildirdilər.***

### Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli: "Avropadakı mühacirlər arasında böyük tərbiyəsizlik hökm sürür"



- Mən bunları izləyirəm. Gəldiyim qənaət ondan ibarətdir ki, Avropadakı mühacirlər arasında böyük tərbiyəsizlik hökm sürür. Fəaliyyətlərini ancaq söyüş mexanizmi üzərində qururlar. Yerə gələndə isə, bunlar bir-birlərini ittiham edirlər, söyülər, bir-birlərinə çox pis sözlər deyirlər, özləri-özlərini təhqir edilər. Demək olar ki, adları çəkilən şəxslər pul üstündə bir-birini qırırlar. Yəni dava yorğan davasıdır. Beləliklə də, adları çəkilən şəxslərin bu cür hərəkətləri onların iç üzünü açır. Həm də, bütün bunlar onu göstərir ki, bunlar sadəcə olaraq, pul qazanmaq və varlanmaqdan ötrü xaricdə yaşamağı seçiblər. Yəni boş qalan ciblərini doldurmaqdan ötrü hər şeyi edilər və bir-birini satırlar. Məsələn, bu şəxslər keçmişdə bir iş görüblərsə və sözləri düz gəlməyəndə həmin işi açıb ortaya qoyurlar. Bununla da, bir-birini ifşa edirlər. Artıq hər kəs bunların iç üzünü görür və başa düşür ki, əslində, bunların davası cib davasıdır.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Mühacir ünsürlər xalqına və dövlətinə şər əməlləri ilə xəyanət ediblər "



-Avropada yaşayıb Azərbaycanda sosial şəbəkələrdə xalqı çaşdırmağa çalışan və özlərini "xalq tərəfdarı" elan edən bu şəxslərin ancaq bir marağı var, o da maliyyə vəsaiti əldə etməkdir. Oradakı anti-Azərbaycan qüvvələrdən maliyyələşən bu şəxslərin, biz artıq neçənci dəfədir ki, alınan qrantların bölüşdürülməsi prosesində bir-biri ilə qarşılıqlı ittihamlarının və davalarının şahidi oluruq. Artıq bu, ənənəvi hala çevrilib. Bu, bir daha onların iç üzünü açır. Artıq hər kəs Avropadakı "söyüş qrupu"na ikrahla yanaşır. Sosial şəbəkələrdə bunların qarayaxma kampaniyasına sərt münasibətlər bildirilib. Dəfələrlə deyirdik ki, onlar aldıqları qrant müqabilində əlaltıya çevriliblər. Ancaq bu ünsürlər hay-həşir salıb, iddia edirdilər ki, biz qrant almırıq, biz işləyirik. Artıq hər şey göz qabağındadır. Həmin insanlar indi bir-birini qarşılıqlı şəkildə qrantları mənimsəməkdə günahlandırırlar. Bu, bir daha onların kimə və nəyə xidmət etdiklərini göstərir. Onlar Azərbaycan əleyhinə olan qüvvələrlə birlə əməkdaşlıq etməkdən çəkinməyərək, çalışırlar ki, maliyyə vəsaiti əldə etsinlər. Bir sözlə, mühacir ünsürlər xalqına və dövlətinə şər əməlləri ilə xəyanət ediblər. Buna görə, onlar mütləq cəzalarını alacaqlar.

**GÜLYANƏ**

# "Mirzəli dünənə kimi Əli Kərimlinin tapşırıqlarını yerinə yetirib"

"Artıq bir neçə gündür ki, xaricdə yaşayan və Azərbaycan dövlətinə qarşı ardıcıl şəkildə kampaniya aparan şəbəkənin aparıcı nümayəndələri Məhəmməd Mirzəli və Tural Sadıqlı bir-birinə qarşı ifşaedici açıqlamalar verirlər. Hesab edirəm ki, bu gün qaldırılan məsələ Azərbaycan cəmiyyəti üçün yeni deyil". Bunu SİA-ya açıqlamasında Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini Niyaməddin Orduxanlı deyib. Onun sözlərinə görə, Avropada müəyyən qurumlar, təchizatlar var ki, onlar Azərbaycandan apardıqları, eləcə də ölkəmizə dəvət etdikləri şəxsləri bir çox hallarda Azərbaycan dövlətinə, siyasi rəhbərliyinə qarşı istifadə edirlər: "Yəni onlar evlə təmin edilirlər, sığınacaqlar, müəyyən texniki avadanlıqlarla təmin olunurlar. Avropada bəlli mövcud şəbəkə var ki, məhz onların əsas fəaliyyəti Azərbaycan dövlətini gözdən salmaq, ölkəmizin imicini korlamaq və Azərbay-



canın milli maraqlarında dövlətimizi zəifləmək mövqeyini tuturlar. Ən əsası da burada maliyyə imkanları, yardımı ilə Avropada, Qərbdə fəaliyyət göstərən güclü erməni diasporası seçilir. Onlar həmin o şəbəkəyə maddi imkanları ilə dəstək verirlər. Yəni indiki halda artıq nə baş verir? Bəllidir ki, Məhəmməd Mirzəli adlı şəxs qrant müqabilində bu günə qədər gördüyü işləri gündəmə gətirib. Yəni bu bütün hallarda həm rəsmi qurumlar tərəfindən, həm də ölkənin siyasi çevrəsində olan müəyyən şəxslər tərəfindən Azərbaycan xalqına bildirilirdi və çatdırılırdı. Bəzən onların içərisində murdar ünsürlər var ki, bütün sərhədləri keçirlər. Yəni onlar ölkənin siyasi rəhbərliyinə, onun ailə üzvlərinə, ölkənin tanınmış ziyalılarına, partiya sədrlərinə, millət vəkillərinə, mətbuat rəhbərlərinə qarşı bu cür iyrənc ifadələr işlədirlər. Təbii ki, onu da məqsədli şəkildə həyata keçirirlər. Burada məsələnin mahiyyəti nədir.

Həmin adı çəkilən şəxs 80 min avronun müqabilində ona çatmış 200 avronun davasını edir. O adam dünənə qədər Əli Kərimlinin tapşırıqlarını yerinə yetirib və Əli Kərimlinin Azərbaycanda olanda partiyasının üzvü olub. Mən dəfələrlə bildirmişəm ki, Əli Kərimli xaricdən qrant alır və onun təşkilatında olan adamlar da məhz o qrantdan bəhrələnir. Yəni bu bir daha özünü təsdiq edir. Amma burada söhbət iri, böyükhəcmli pullardan gedir. Azərbaycan cəmiyyəti bilməlidir ki, bu gün həmin o Avropada fəaliyyət göstərən daxili satqın ünsürlər şəbəkə olaraq irihəcmli maliyyə qrantlarının idarə olunmasını həyata keçirirlər".

**Ceyhun Rasimoğlu**

# "Saakyanın səfərini həmsədrlər özləri təşkil edib"

***"Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin rəhbəri kimi özünü təqdim edən Bako Saakyanın ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinə (Fransa, ABŞ, Rusiya) səfərini elə məhz həmsədrlərin özləri təşkil edib. Ən azından onlar bu səfərin təşkilinə razılıq veriblər. Məqsəd isə qondarma Dağlıq Qarabağa dair qurulmuş xristian ölkələrinin böyük qüvvəsindən gedir". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.***

Politoloqun sözlərinə görə, onlar münaqişələrin eyni ssenaridə həll olunmasını söyləsələr də, dəstəkləsələr də, ayrılıqda Dağlıq Qarabağ məsələsinə fərqli yanaşma metodunu işləyib hazırlayıblar: "Təbii ki, bu



metodun bir parçası da Bako Saakyanın həmin ölkələrə səfəridir. Söhbət millətlərin öz müqəddəratını təyin etməsi hüququ ilə ərazi bütövlüyü məsələlərinin sintezləşdirilməsindən gedir. Onların bunu necə sintezləşdirəcəkləri bəllidir. Yəqin ki, bu məsələ ətrafında fikir mübadiləsi aparılıb və onun necə reallaşdırılması barədə beynəlxalq hüquqazidd münaqişələr aparılıb. Bu səfəri təşkil edənlər açıq-aydın dövlətlərin suveren hüquqlarına da müdaxilə ediblər".

# Pirallahıda "Təhsildən - peşəyə" mövzusunda tədbir keçirilib

***Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı və Peşəyönümlü Təhsilin İnkişafına Yardım İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Təhsildən - peşəyə" başlığı altında tədbir keçirib. 168 №-li orta məktəbdə keçirilən tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, peşəyönümü gənc nəslin təlim-tərbiyə işləri sistemində mühüm yer tutan problemlərdən biri olub, yeniyetmə və gənclərə həyatda öz yerini düzgün tapa bilmələri, özlərinin arzularına, marağına, başlıcası isə, qabiliyyət və bacarığına müvafiq peşə və ixtisas seçmələrində kömək göstərir:***

"Uşaqların elm öyrənməsi, sənət seçməsi, peşə sirlərinə yiyələnmələri kimi məsələlər gənc nəslin formalaşmasında xususi yer tutur. Yeniyetməlik dövründə düzgün seçilməyən sənət insana bütün ömrü boyu öz mənfi təsirini göstərir".



Tədbirin qonağı, kulturoloq, tarix elmləri doktoru, "Simurq" Azərbaycan Mədəniyyət Assosiyasının prezidenti, Azərbaycanda kulturologiya elminin yaradıcısı Fuad Məmmədov çıxışında bildirib ki, peşə seçən hər bir gənc öz peşəsinə və ixtisasına ürəkdən bağlansın, onu sevsin, daha böyük uğurlar əldə etməyə çalışsın və onda seçdiyi peşə ilə gələcək karyerasını qura bilmək əminliyi yaransın ki, bununla da, hər kəs öz bacarıq və qabiliyyətinə müvafiq peşəyə və ixtisasa yiyələnmiş olsun.

Peşəyönümlü Təhsilin İnkişafına Yardım İctimai Birliyinin sədri İradə Əlili çıxışında ictimai birliyin fəaliyyətindən bəhs edərək, birliyin əsas məqsədinin şagirdlərin peşəyönümü ilə bağlı düzgün istiqamətləndirilməsini təşkil etmək olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb. İbtidai sinif şagirdlərinin ifasında peşələrlə bağlı nümayiş olunan musiqili kompozisiya, yuxarı sinif şagirdlərinin peşə seçimi ilə bağlı kulturoloq, tarix elmləri doktoru, "Simurq" Azərbaycan Mədəniyyət Assosiyasının Prezidenti, Fuad Məmmədovla dialoqları və keçirilən test tədbir iştirakçılarının böyük marağına səbəb olub. Peşəyönümlü Təhsilin İnkişafına Yardım İctimai Birliyi sədrinin müavini Aytən Əsgərova İradə Əlilinin yeni çapdan çıxmış "Xocalı... Şahidlər danışır" kitabını 168 saylı orta məktəbin direktoru Mehparə Mansırovaya təqdim edib.

***Rövşən RƏSULOV***

## Bakutel-2018 sərgisində Bakcell ən son texnologiyaları nümayiş etdirəcək

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti qarşıdan gələn "Bakutel-2018" 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgi və Konfransında fəal iştirak etməyə hazırlaşır. SİA xəbər verir ki, innovasiyalar sahəsində özünü doğrultmuş lider olan Bakcell öz ənənəsinə sadiq qalaraq bu il də ziyarətçiləri və sərgi iştirakçılarını böyük məmnuniyyətlə öz stendinə dəvət edərək, ən müasir texnologiyaları, rahat və müasir məhsul və xidmətlərini, şirkətin son nailiyyətlərini onlara nümayiş etdirəcək, habelə onlar üçün bir sıra əyləncəli tədbirlər, maraqlı oyunlar və müsabiqələr təşkil edəcək.




"Bakutel sərgisi telekommunikasiya sahəsində fəaliyyət göstərən şirkətlərin əldə etdikləri ən son uğurlarını nümayiş etdirmələrinə və ziyarətçilərin, xüsusi ilə də peşəkar və müasir istifadəçilərin ən son texnologiyalar və innovasiyalarla tanış olmalarına imkan yaradan bir layihədir. Mən əminəm ki, Bakcell şirkətinin stendi həmişəki kimi bu il də ziyarətçilər üçün olduqca cəlbedici olacaq və bütün qonaqlar və sərgi iştirakçıları üçün xoş bir sürprizə çevriləcək", deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

"Bakutel-2018" sərgisində quraşdırılacaq Bakcell stendinin qonaqları tanınmış OOKLA şirkəti tərəfindən sınaqdan keçirilmiş və Azərbaycanın Ən Sürətli Mobil Şəbəkəsi adına layiq görülmüş Bakcell şəbəkəsinin imkanları ilə tanış olmaq fürsəti qazanacaqlar.

Bundan əlavə, sərgi ziyarətçiləri Bakcell şirkətinin yeni istifadəyə verilmiş "Mənim Bakcellim" mobil tətbiqetməsi ilə tanış olmaq, müştəri xidmətləri ilə canlı əlaqə yaradıb maraqlandıran sualları vermək, mobil əlavəni sınaqdan keçirib onun maraqlı və unikal funksiyaları barədə məlumat almaq imkanına malik olacaqlar.

Bakcell stendində həmçinin ideyaların, mobil tətbiqlərin və texnologiyaların pilot variantından istifadəyə tam hazır məhsul variantınadək çatdırılmasında gənc yerli developerlərə kömək edən AppLap inkubasiya mərkəzi vasitəsilə gənc Azərbaycanlı startaplar tərəfindən yaradılmış 2 layihə təqdim ediləcək.

Nəhayət, Bakcell şirkətinin "Bakutel 2018" stendinin ziyarətçiləri sərgidən əyləncəsiz ayrılmayacaqlar. Onlar "Ulduzum" tərəfindən təşkil edilmiş labirint oyununda iştirak edib şənlənməyə, hədiyyələr qazanmağa və Bakcell şirkətinin bu maraqlı loyallıq proqramı barədə məlumatlanmağa dəvət olunacaqlar.

Bu il Bakcell stendində həmçinin "Wi-Fi Evinizdə" sahəsi də mövcud olacaq ki, orada qonaqlar rahat ev şəraitində "Virtuall Realliq" proqramında futbol oynamaq, mini qonaq otağında dincəlmək və ölkənin ən sürətli mobil internetdən istifadə etmək imkanına malik olacaqlar.

Mehriban və əyləncə dolu bir mühitdə ən müasir texnologiyalardan istifadə etməklə unudulmaz təəssüratlar əldə etmək üçün Bakcell şirkəti "Bakutel 2018" sərgisinin bütün ziyarətçilərini öz sərgi stendinə dəvət edir.

Xatırladaq ki, Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir. Bakcell şirkətinin 4G şəbəkəsi artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir.

7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test"). 2018-ci ildə şirkət "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən "Bakcell"ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib

Bakcell və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.

Qeyri-Bakcell abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə "Bakcell"in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.

## "Nar" 2018-ci ilin üçüncü rübünün nəticələrini açıqladı

Cari ilin üçüncü rübünün nəticələrinə əsasən "Nar" bir çox göstəricilər üzrə yüksək artım dinamikası nümayiş etdirib və bir çox uğurlu layihələr təqdim edib.

Təkmilləşdirmə işlərinin nəticəsi olaraq ikinci rübdən bu yana 370-dən çox 4G, 70-dən çox 3G baza stansiyaları qurulub. Hazırda ölkə ərazisində "Nar" 4G baza stansiyalarının sayı 1620-ni, 3G baza stansiyalarının sayı isə 2670-i ötüb. 4G və 3G baza stansiyalarının sayını sürətlə artıran "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq, Bakı və Abşeron yarımadasından başqa 40-dan çox bölgə mərkəzləri "Nar" 4G şəbəkəsi ilə əhatə olunub. Nəticədə mobil operatorun abunəçi bazası üçüncü rübdə 4% artıb. "Nar" hazırda 7300-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir. Yeni istismara verilən "Nar" 4G baza stansiyalarının təqdim etdiyi yüksək keyfiyyətli mobil internet xidməti nəticəsində, 2018-ci ilin əvvəli ilə müqayisədə, "Nar" 4G internetindən istifadə edənlərin sayı 2 dəfə artıb. Hazırda "Nar"-ın yüksək keyfiyyətli 4G xidmətindən istifadə edən abunəçilərin sayı yarım milyona çatıb.

"Nar"-ın üçüncü rüb ərzində həyata keçirdiyi əhəmiyyətli layihələrdən bir də brendini və şüarını yeniləməsi oldu. Yenilənmiş "Nar" brendi müştərilərin ehtiyaclarını qarşılamaq, onların etibarlı tərəfdaşı olmaq məqsədi daşıyır. Daim yeniliklər edən "Nar" Azərbaycan telekommunikasiya bazarında ilk dəfə olaraq, onlayn TV - "Nar TV" tətbiqini təqdim edib. "Nar TV" istənilən məkanda və vaxtda mobil telefonlarda və ya tabletlərdə idman, əyləncə, uşaq, film, xəbər də daxil olmaqla, 100-ə qədər seçilmiş yerli, regional və beynəlxalq televiziya kanallarına giriş imkanı verir. Üçüncü rüb ərzində müştəri məmnuniyyətində də artım müşahidə olunub. "Nar" ölkə ərazisi boyunca 3G, 4G və LTE-A şəbəkəsini genişləndirməklə, abunəçilərə sərfəli qiymətə yüksək keyfiyyətli mobil internet paketlərini təqdim etməklə müştəri loyallığı indeksinin artımına müvəffəq olub. Üçüncü rüb ərzində müştəri loyallığı indeksi 11%, internet məmnuniyyəti indeksi isə 4% artıb.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə "Nar" zəng xidmətlərinin keyfiyyətinin yüksəldərək "HD-Voice" xidmətini tətbiq etmiş və həmin ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail

olmuşdur. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirmiş və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanmışdır.

***Son illərdə böyük inkişaf yolu keçən respublikamız bir çox sahələrdə mühüm uğurlara imza atıb. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz dinamik inkişaf edir, beynəlxalq mövqeləri möhkəmlənir. İnsanların sosial-iqtisadi durumunun yaxşılaşması, vətəndaş cəmiyyəti quruculuğu prosesinin genişlənməsi, hüquqi-demokratik proseslərin həyata keçirilməsi istiqamətində əhəmiyyətli tədbirlərin görülməsi Azərbaycanda aparılan siyasətin düzgün və ümumxalq maraqlarına söykəndiyini nümayiş etdirir. Birmənalı şəkildə demək olar ki, regionların sosilal-iqtisadi inkişafına dair dövlət proqramlarının təsdiqi və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində, respublikamızın bütün bölgələrinin siması tamamilə dəyişmiş, demək olar ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılmışdır. Dövlət Proqramının qəbulundandan keçən ilkin mərhələdən ( 2004-2008-ci illər) bu günə qədə 2 milyona yaxın yeni iş yeri yaradılmışdır. Bölgələrdə yeni iş yerlərinin açılması və qeyri-neft sektorunun inkişafı, daha çox valyuta gətirən strateji əhəmiyyətli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması üçün bütün imkanlardan istifadə edilməsi əhalinin məşğulluğunu daha da artırmışdır.***



# Həyata keçirilən islahatların təməlində Azərbaycan vətəndaşı dayanır

## *Ölkəmizə beynəlxalq diqqət və marağın əsasında Prezident İlham Əliyevin fədakar fəaliyyəti dayanır*

Təbii ki, bu uğurların və nailiyyətlərin əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər tərəfindən qoyulmuş bu inkişaf strategiyası hazırda Onun layiqli siyasi davamçısı Prezident İlham Əliyev tərəfindən dövrün reallıqlarına, zamanın tələblərinə uyğun yeni çalarlarla zənginləşdirilərək, uğurla davam etdirilir. Ölkə başçısının həyata keçirdiyi sosial-iqtisadi siyasətin strateji məqsədi sosialyönümlü, diversifikasiya olunmuş, özünüinkişaf qabiliyyətli milli iqtisadiyyatın qurulmasıdır. Azərbaycan bu sahədə, tarix üçün olduqca qısa sayılan zaman kəsiyində, həqiqətən də, qibtəediləcək nailiyyətlər qazanmışdır. Söz yox ki, özəl sektor, kiçik və orta sahibkarlıq, sadəcə olaraq, biznes mühitini yaxşılaşdırmaq, yeni iş yerləri yaratmaq üçün deyildir. Sahibkarlığın inkişafı, əslində, çox böyük islahat deməkdir. Bu islahat ölkə başçısı İlham Əliyevin Fərman və Sərəncamlarına əsasən, Azərbaycanda uğurla aparılır. Ölkə başçısının "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına uyğun olaraq, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində mühüm və əhəmiyyətli addımlar atılıb və müvafiq işlər görülüb. Məhz bu işlərin nəticəsidir ki, son illər ölkə iqtisadiyyatına qoyulan investitsiyanın 80 fazini özəl sektor təşkil edir. Bu isə, o deməkdir ki, sahibkarların dövlətə ödədiyi vergi payı da artır. Nəticədə, büdcənin imkanlarının yaxşılaşması həm sosial təbəqənin, həm də investisiya sahəsinin inkişafı üçün əhəmiyyət daşıyır. Bu, həm də qeyri-neft sektorunun ölkə iqtisadiyyatında aparıcı sahəyə çevrilməsi üçün impuls vermiş olur. Nəzərə alsaq ki, yeni iş yerlərinin böyük əksəriyyəti bölgələrin payına düşür və həmin müəssisələr özəl bölməni əhatə edir, onda orta təbəqənin formalaşmasında sahibkarlıq sektorunun çəkisinin hansı rola malik olması aydın olur. Dövlətimizin başçısı İlham Əliyev bildirir ki, hər sahə üzrə proqramların mövcudluğu, həyata keçiriləcək layihələrin xalq tərəfindən dəstəklənməsi, birgə addımların atılması gələcəyə daha böyük inamla irəliləməyə stimul verir. Prezident İlham Əliyevin son 15 ildə hər bir vədini konkret əməli işi ilə təsdiqləməsi, həyata keçirdiyi siyasətin alternativsizliyini bir daha təsdiqləyir.

### Yeni uğurlar, yeni nailiyyətlər

Son 15 ildə respublikamızın bütün sahələrində böyük uğurlar qazanması, maliyyə imkanlarının artması, ölkəmizin transmilli layihələrin təşəbbüskarı və əsas iştirakçısı kimi çıxış etməsi, müasir tələblərə cavab verən infrastrukturun yaradılması, ən yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirmişdir. Bunların real mənzərəsini görmək üçün bir sıra iqtisadi və maliyyə göstəricilərinə diqqət yetirmək kifayətdir. Belə ki, son 15 il ərzində ümumi daxili məhsulda özəl sektorun payı 80 faizi ötüb, makroiqtisadi sabitlik möhkəmlənib, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib. Bu dövrdə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artıb, qeyri-neft ixracı 4,1 dəfə çoxalıb. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 46 milyard dollara çatıb. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub. Son 15 ildə ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturu tamamilə yenilənib. Bu dövrdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilib, yaxud əsaslı təmir edilib. Azərbaycanda 6-sı beynəlxalq olmaqla, 7 hava limanı inşa olunub, 14 min kilometrdən çox müasir yollar çəkilib, 453 körpü, tunel tikilib və ya təmir olunub, Xəzər dənizində 270 gəmidən ibarət iri ticarət donanması yaradılıb, 1750-dən çox yaşayış məntəqəsi təbii qazla təmin edilib, qazlaşdırma səviyyəsi 94 faizə çatdırılıb. Əhalinin dünya standartlarına uyğun keyfiyyətli içməli su ilə təmin olunması məqsədilə 27 şəhər və rayon mərkəzində su və kanalizasiya şəbəkəsi yaradılıb, 230 su anbarı tikilib, 300-dən çox artezian və subartezian quyusu qazılıb, modul tipli 466 sutəmizləyici qurğu quraşdırılıb. Bu sahədə Oğuz-Qəbələ-Bakı Su Kəmərinin və Ceyranbatanda Sutəmizləyici Qurğusunun tikintisi mühüm əhəmiyyət kəsb edir. Görülmüş işlər nəticəsində, mərkəzləşdirilmiş qaydada içməli su ilə təmin olunan əhalinin sayı 2 dəfədən çox artıb. Azərbaycan 2003-cü ildən başlayaraq dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Nəticəsi isə göz önündədir. Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Təkcə bir fakta nəzər yetirək. Əgər 2003-cü ildə valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə, bu gün 42 milyard dollardır. Yəni son 15 ildə Azərbaycanın valyuta ehtiyatları 23 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, akademik Ramiz Mehdiyev "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" məqaləsində yazır ki, bu gün dünya Azərbaycanı yenidən kəşf edir. Ölkəmizə beynəlxalq diqqət və marağın əsasında Prezident İlham Əliyevin fədakar fəaliyyəti dayanır: "Artıq politoloji tədqiqatlarda "Azərbaycan modeli" haqqında fikirlər səslənir. Lakin bizdə hələ də inkişafın Azərbaycan modeli ilə bağlı fundamental təhlillər aparılmır, bu modelin uğurlarını dəstəkləyən və onun əsas meyillərini üzə çıxaran əsərlər yazılmır. Bu illərdə həyata keçirilən yenilikçi qərarlar, Azərbaycanı zəif və tənəzzülə uğramış iqtisadi sistem, geridə qalmış siyasi-institusional quruluş və marqinal ictimai şüurla xarakterizə olunan cəmiyyətdən, dayanıqlı siyasi sistem, bazar xarakterli iqtisadi struktur və mərhələlərlə formalaşan demokratik institutlarla səciyyələnən ölkəyə çevirmişdir".

### Aparılan düzgün, məqsədyönlü siyasət xalqımızın xoşbəxt gələcəyinə hesablanıb

Ölkəmizdə həyata keçirilən iri layihələr, dövlət proqramları əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və güzəranının yaxşılaşdırılmasına hesablanıb. Hər ötən dövr ərzində Azərbaycan daha da inkişaf edir, insanların sosial-iqtisadi durumu daha da yaxşılaşır. Bunu nüfuzlu beynəlxalq maliyyə qurumları da yaydıqları illik hesabtlarınqda qeyd edirlər. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı-2018-2019" hesabatında Azərbaycanın iqtisadi inkişafı əhəmiyyətli dərəcədə vurğulanır. Yeni metodologiya əsasında hazırlanan budəfəki hesabata yeni indikatorlar daxil edilib. Əvvəlki hesabatın 114 indikatorundan 84-ü (74 faizi) çıxarılıb, 68 yeni indikator daxil edilib. Beləliklə, hesabatda mövcud 98 indikatorun 70 faizi tamamilə yenidir. İqtisadçı-ekspert Vüqar Bayramov Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı-2018-2019" hesabatı ilə bağlı bildirib ki, hesabatda Azərbaycan bir sıra istiqamətlər üzrə aparıcı mövqeyini qoruyub-saxlayıb: "Dünya İqtisadi Forumu dünyanın ən aparıcı iqtisadi qurumlarındandır. Bu, yeganə forumdur ki, dünyanın aparıcı hökumət və dövlət liderlərini bir araya gətirir. Bu forumun hazırladığı hesabat, praktik olaraq, dünyada qlobal siyasətə təsir edəcək hesabatlardır. Xüsusən də, illik görüşlərində qlobal müzakirənin də aparılması, ondan xəbər verir ki, Dünya İqtisadi Forumu qlobal məsələlərə təsir imkanı olan forumdur. İndikatora görə, Azərbaycanın mövqeyi biznesin qeydiyyatdan keçmə indeksinə görə 17-ci, müflisləşmə normativ-hüquqi bazası alt-indikatoru üzrə 17-ci, sahibkarlıq riskləri alt-indikatoru üzrə 21-ci və ideyaların şirkətə təsiri alt-indikatoru üzrə 25-ci yerdə bərqərar olub. Bu da müsbət məqam kimi qiymətləndirilə bilər. Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə dünyada ilk pillədədir".

İqtisadçı-ekspert heasabtda yer alan dövlətlərin sosial və səhiyyə sıralamasını şərh edərkən bildirib ki, Azərbaycan sosial və səhiyyə istiqamətləri üzrə də aparıcı ölkələrlə yanaşı sıralardadır: "Azərbaycan bəzi indikatorlara görə ilk 15-liyə daxil olmaq imkanı qazanıb. Bu indikatorlar göstərir ki, Azərbaycanın mövqeyində yaxşılaşmalar qeydə alınıb. Növbəti illərdə islahatların dərinləşməsi Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatında Azərbaycanın mövqeyinin daha da yaxşılaşmasına gətirib- çıxaracaq. Sonda Azərbaycanın dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yerdə qərarlaşması kimi yüksək nəticə barədə bir qədər ətraflı bəhs etmək istərdik. Belə ki, son illərdə təkcə Azərbaycan Qlobal Rəqabətlilik Hesabatında deyil, həm də digər nüfuzlu beynəlxalq reytinq qurumlarının hesabatlarında iqtisadiyyatın sürətli inkişafı ilə bağlı mühüm uğurlar, o cümlədən respublikamızda investisiyalar üçün əlverişli biznes mühitinin yaradılması, sahibkarlıq subyektlərinin qeydiyyat prosesinin təkmilləşdirilməsi məsələləri əksini tapıb".

Əminliklə demək olar ki, sosial-iqtisadi və digər sahələrdə ili çox böyük uğlarla başa vurmaqda olan Azərbaycan 2019-cu ili də eyni inkişaf tempi ilə davam etdirəcək. Çünki Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin inamla və qətiyyətlə davam etdirdiyi xeyirli, gərəkli fəaliyyəti Azərbaycanı güclü, qüdrətli dövlətə çevirməyə, xalqımızın xoşbəxt gələcəyini daha yüksək formada təmin etməyə hesablanıb.

***Qismət İsmayılov,***
***İqtisadiyyat şöbəsinin müdiri***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə*

# “Mühacir biznesi” Əli Kərimlinin başına bəla açır

## *Xaricdəki “söyüş qrupu” üzüdönüklük edərək, Kərimli haqqında ifşaedici faktlar açıqlamağa hazırlaşır*



***Milli və dövlətçilik maraqlarına qarşı düşmən mövqei ilə seçilən dağıdıcı xislətli müxalif partiya sədrlərinin ətrafındakı halqa getdikcə daralmaqdadır. Artıq cəmiyyətin onlara olan mənfi münasibəti fonunda partiya üzvlərinin kütləvi istefaları ilə yanaşı, xaricdəki anti-Azərbaycan qüvvələr də mövqelərində dəyişiklik etməyə başlayıblar. Yəni sonuncular yarıtmaz və naşı müxalif ünsürlərlə əməkdaşlıqdan imtina kursu götürürlər. Bu isə dağıdıcı müxalifət üçün intihara bərabərdir. Qısaca desək, siyasətdən getmələri deməkdir. Çünki sosial baza olmasa da, maliyyə imkanları hesabına siyasətdə sürünmək mümkündür. Ancaq maliyyə vəsaiti olamdığı halda, siyasətdə qalmaq, boş-boşuna meydanda veyillənmək deməkdir. İddialı və təkəbbürlü müxalifət yetkililəri isə, adlarının avaralar sıyasında əks olunmasını istəmirlər.***

Onlar mətbuatda görünmək, meydanlarda qışıqrmaq iddiasındadırlar. “Milli Şura”nın sədri Cəmil Həsənlinin son üç ayda dörd dəfə Avropaya və ABŞ-a üz tutması, üzləşdikləri maliyyə problemlərini aradan qaldırmağa hesablanmışdır. Ancaq səfərlər nəticəsiz qalıb. Xarici ölkələrdən əli ətəyindən uzun qayıdan C.Həsənli artıq acı taleyi ilə barışaraq, demək olar ki, “Milli Şura” ilə əlaqələrini kəsib. Son bir ayda, C.Həsənli qurumun koordinasiya şurasının toplantılarına qatılımır. Telefonlarını da söndürdüyündən, onunla əlaqə saxlamaq mümükünsüz olub. Bu isə Ə.Kərimlini ciddi narahat edir. Çünki C.Həsənlinin əlində AXCP və “Milli Şura”nın qaranlıq maliyyə qaynaqları əldə etməsinə dair kifayət qədər faktlar mövcuddur.

### Fikrət Hüseynli sifarişləri Əli Kərimlidən alsa da, məsləhət yeri Cəmil Həsənli olub

Bu kimi faktlar, eləcə də, “mühacir biznesin”dən əldən olunan maliyyə vəsaitlərinin mənbələrinin C.Həsənli tərəfindən açıqlanması Ə.Kərimlini siyasətdə bitirməsi ilə nəticələnər. Nəzər almaq lazımdır ki, AXCP sədri Ə.Kərimlinin “siyasi mühacir” biznesinin əsas ortaqlarından biri olan və hazırda Hollandiyada yaşayan Fikrət Hüseynli C.Həsənlinin əsas dostlarından hesab edilir. F.Hüseynli sifarişləri Ə.Kərimlidən alsa da, məsləhət yeri C.Həsənli olub. Dəfələrlə F.Hüseynli xaricə “rahat həyat və yaşayış” arxasınca getmək istəyənlərdən 2500-3000 AVRO alaraq onların “arzuları”nın reallaşmasına yaradımçı olub. Ancaq əksər hallarda ifşa olunub. Buna misall olaraq AXCP-nin Nizami rayon təşkilatının üzvü Vüqar Əzizovun üzləşdiyi hadisəni göstərmək olar. V.Əzizov 10.000 AVRO ödəməklə Ə.Kərimlinin imzası və AXCP-nin möhürü ilə cəbhənin küçələrdə “əzilən” üzvlərindən olmasına dair arayış alıb. Ancaq bu biçarənin istəkləri başa tutmayıb. Yəni it də gedib, ip də. V.Əzizov Fransaya, oradan isə Hollandiyaya getsə də, özünə rahat iş və yer tapa bilməyib. Polis tərədindən həbs olunan V.Əzizov Hollandiya məhkəməsi tərəfindən deport edilib. Hazırda nə edəcəyini bilməyən V.Əzizov, ağılsız hərəkətləri nəticəsində, özü ilə apardığı ailəsi də çıxılmaz vəziyyətdə qalıb.

### Xaricdəki mühacirlər Əli Kərimlini rüsvay etdilər

V.Əzizov kimi biçarələrin Ə.Kərimli kimi siyasi dəllal tərəfindən aldadılması müxalifət düşərgəsini çalxalandırmaqdadır. Bir neçə gün əvvəl, daha bir mühacir Ə.Kərimli tərəfindən aldadıldığını anlayaraq, Azərbaycan Miqrasiya Mərkəzinin hazırda Almaniyada yaşayan rəhbəri Əlövsət Əliyevə müraciət etməsi yanan alovun üzərinə benzin çilənməsi effekti yaradıb. Məsələ ilə bağlı Ə.Əliyev sosial şəbəkədə status yazıb: “Bir həmvətənimiz məsləhət üçün ofisə gəlmişdi. Əvvəlcə Almaniyada olan vəkillərindən şikayət etdi, iki vəkil dəyişib, sonra isə problemini danışmağa başladı”.

Bir sözlə, “mühacir biznes”ə girişməsi Ə.Kərimlinin başına bəlalar açmaqdadır. Xüsusilə də, Avropa da məskunlaşan “söyüş qrupu”nun üzvləri hesab oluna Məhəmməd Mirzəli ilə Tural Sadıqlının bir-birini ayrılan maliyyə vəsaitlərini mənimsəməkdə günahlandırmaları və bunun ardınca bu ifşaedici məlumatların yayılmasının müəllifinin Ə.Kərimlinin olduğu üzə çıxması AXCP sədrinin vəziyyətini daha da ağırlaşdırıb. Məlumatlara istinadən demək olar ki, yaxın günlərdə xaricdəki aladılaraq pulları mənimsənilən “mühacir”lər Ə.Kərimlini ifşa edən faktları vidio şəkilində sosial şəbəklərdə paylaşacaqlar. Bu kimi hallar, eləcə də, C.Həsənlinin “Milli Şura” ilə əlaqlərini kəsməsi Ə.Kərimlinin kürkünə birə salıb. Çünki “Milli Şura”ya toplaşanlar, əsasən, vaxtilə elm adamı olmuş C.Həsənliyə görə qrumda qalırlar. C.Həsənlinin gedişi, o deməkdir ki, “Milli Şura” daxilində vəlvələ yaranacaq, istefalar baş verəcək. Bunu Ə.Kərimli dərk edir. Ona görə də, qabaqlayıcı tədbirlər görməyə, ən azı qrumdan baş verəcək istefaların sayını azaltmağa çalışır. Bunun üçün sosial şəbəkələrin imkanlarındanda yararlanmağa cəhd edir. Amma məsəl var, “bəla gələndə, batmanla gələr”. Ə.Kərimli üçün bəla özünün əməllərinin nəticəsi olaraq gəlməkdədir. Çünki “Facebook sosial şəbəkəsində, zorakılıq təbliğ edən, terrora çağırış olan saxta profillərin bağlanması barədə qərar verilib. Artıq prossesdə başlayıb. Bu isə, o deməkdir ki, artıq kərimlilər, hacılılar sosial şəbəkələr üzərində saxta profillər açaraq terroru, zorakılığı təbliğ edə, insanları iğtişalara çağıra bilməyəcəklər. Dağıdıcı ünsürlərin, xüsusi ilə də, Ə.Kərimlinin və onun ətrafının facebookda çoxsaylı saxta profillər yaradaraq, insanları tənqid və təhqir etməsi siyasi arenanın ən ikrah doğuran problemlərindəndir.

### Əli Kərimli çirkin siyasətinin qurbanı oldu

Dəfələrlə, facebook istifadəçiləri, siyasi partiya funksionerləri tərəfindən Ə.Kərimliyə “silahını yerə qoy” çağırışı ilə müraciətlər olunsa da, nəticəsi olmayıb. Ə.Kərimli, kor tutduğunu buraxmayan kimi, bəd əməllərindən əl çəkməyib. Əksinə, daha həyasız və şivən formasında yaramaz fəaliyyətini davam etdirib. Verilən məlumatlara görə, Ə. Kərimlinin və ətrafının, ümumilikdə, 110-a yaxın saxta Facebook səhifəsi var. AXCP və “Milli Şura” üzvləri qarşısında tələb qoyan Ə.Kərimli onlardan saxta profillərin sayını artırmağı tələb edir. Bu yolla o, çirkin siyasətini təbliğ etmək və eyni zamanda, insanların şərəf və ləyaqəitini alçaltmağa, təhqir etməyə çalışır. Amma onun fəaliyyəti boş qazanı döyəcələməkdən başqa bir şey deyil. Çünki cəmiyyət onun simasına və sifətinə bələd olduğundan sosial şəbəklər vasitəsi ilə apardığı təbliğatda ciddi qəbul etmirlər. Vaxtaşırı cəmiyyətin özü ona və ətrafında olanlara tutarlı cavab verirlər. Facebookun son qərarı, Ə.Kərimlinin bu istiqamətdəki fəaliyyətini də alt-üst etmiş olacaq. Yəqin ki, bundan sonra Ə.Kərimli abırına və həayasına qısılıb, əski mövqeyinə qayıtmalı olacaq. Təbii ki, əgər onda, az da olsa sadaladığım kriteriylar varsa.

***İ.ƏLİYEV***

# Bakıda aptek və mağazalardan silsilə oğurluqlar edən şəxs saxlanılıb

Xətai Rayon Polis İdarəsinə Zığ Yolu küçəsində yerləşən apteklərdən birinin qapısının naməlum şəxs tərəfindən sındırılaraq, kassadan 1200 manat məbləğində pulun oğurlanması barədə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, idarənin əməkdaşları tərəfindən dərhal hadisə yerinə baxış keçirilib, obyekt sahibinin izahatı alınıb. Həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən paytaxt sakini Abdulrəhman Dadaşov qısa müddətdə saxlanılaraq istintaqa təqdim edilib.

Saxlanılan şəxsin ətrafında keçirilən əlavə tədbirlərlə onun paytaxtın digər rayonlarındakı apteklərdən və mağazalardan da silsilə oğurluqlar etdiyi məlum olub. Faktlarla bağlı Xətai Rayon Polis İdarəsində araşdırmalar davam etdirilir. Həmin şəxsin digər cinayətlər törətməsi də istisna olunmur. Onun qanunsuz əməllərindən zərərçəkən başqa vətəndaşlar olarsa, bu barədə Daxili İşlər Nazirliyinin 102 - Zəng Mərkəzinə və ya Xətai Rayon Polis İdarəsinə müraciət edə bilərlər.





## Xədicə İsmayıl qrant alverçisinə çevrilib

**RƏFİQƏ**

***Söyülüb, söyməyə adət edən, vaxtilə xarici donorlardan qrant alıb yeyənlər bu gün bir-birlərinə düşmən kəsiliblər. Müxtəlif xarici donorlardan pul alıb, hakimiyyətə qarşı çirkin kampaniyalar aparan bu insanları birləşdirən ancaq aldıqları puldur. Ancaq sonradan bir-birilərinə qurşaqdan aşağı nə lazımdırsa deyirlər, amma yenə də özlərini abırsızlığa qoyurlar. Abır onlar üçün qrantdır. Elə bu günlərdə Avropada yaşayan müxalif mühacirlərinin qırğına çıxmaları deyilənlərin sübutudur.***

Məlum olur ki, Avropada yaşayan mühacirlər alınan qrantları bölüşdürməkdə xəyanətkarlıq ediblər və başlayıblar qırğın-qiyamətə. Bu hadisədən cuşa gələn və “araşdırıcı jurnalist” Xədicə İsmayıl da keçib hərəkətə. “Qrant alverçiləri”nin davasından əl çəkməyən Xədicə İsmayıl öz həyasızlığını nümayiş etdirərək, facebook səhifəsində yenə də statuslar və şərhlər verməklə diqqəti cəlb etməyə cəhd edib. Nə qədər həyasız və abırsız olduğunu aydın şəkildə göstərən X.İsmayıl həmin yazılarında yenə də dövlətə qarşı xəyanətkar olduğunu göstərməklə yanaşı, erməniçilik sevdasını da unutmur. Bir də bu, o X.İsmayıldır ki, öz mənafeyi olmadan heç kimin müdafiəsinə qalxmaz və ən azından, buna vaxt sərf etməz. Maraqlısı da budur ki, bütün fəaliyyəti dövründə erməni maraqlarını üstün tutan Leyla Yunusla yarışa da girişməyə başlayıb. Çünki L.Yunusun da saysız-hesabsız xəyanətləri o qədər çoxdur ki... Görünür, elə buna görə də, L.Yunusdan geri qalmaq istəmir. Ancaq X.İsmayılın Vətənə xəyanətləri heç L.Yunusunkundan dalda qalmır. Xüsusilə də, “tərbiyəsi” ilə məşhur olan X.İsmayılı onunla müqayisə etsək, bu müqayisədə yalnız fiziki fərqlərin oduğunu görərik. Lakin onların daxili aləmlərində mövcud olan xəbislik, satqınçılıq, donosçuluq, Vətənə xəyanət, xalqa, millətə nifrət və s. tipli amillər yenilik təşkil edər, eyni zamanda, hər ikisində vicdan anlayışı müşahidə edilməz. Çünki X.İsmayılda bircə qırıq da olsa vicdan, şərəf və ləyaqət hissi mövcud olsaydı, bu günə qədər törətdiyi rüsvayçılıqlar üzündən xalqın arasına çıxmazdı. Fəqət, o da sirr deyil ki, bu yolun yolçuları heç də uzağa gedə bilməyiblər. Çünki xalq belələrinin qarşısını dəfələrlə alıb, bundan sonra da alacaq. Xədicə buna yüz faiz əmin olmalıdır. Görünür, elə buna görə də, son günlər yaman vicvicəyə düşüb. Ancaq gecdir, çox gec. Bu vicvicə sən Xədicəni yaxın zamanlarda lazım olan yerə qədər izləyəcək.

# Heydər Əliyev Azərbaycanda etiqad azadlığı haqqında

***2001-ci ilin may ayında Azərbaycanda olan II Aleksi ölkəmizdəki tolerantlıq mühitinə heyran qaldığını etiraf edərək demişdi: "Burada pravoslavlar heç bir sıxışdırmaya məruz qalmadan öz dinlərinə və əqidələrinə etiqad edirlər. Hətta bu cür şərait, təəssüf ki, bəzi pravoslav ölkələrdə belə yoxdur". Azərbaycana səfəri zamanı Ulu Öndərimizə müraciətində o: "Siz bu torpaqlarda yaşayan insanların bərabərhüquqlu olmaları, öz dinlərinə etiqad etmələri, bərabər işləmələri və bir-birilərinə qarşı durmaları üçün səy göstərmiş və buna nail olmusunuz."***

1999-2001-ci illərdə paytaxtda digər pravoslav məbədi - Müqəddəs Məryəmin Miladı Baş Kilsəsi də bərpa olunmuşdu. Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq sahəsində nadir təcrübəsinə bariz nümunəsi Heydər Əliyevin 1996-cı il sentyabrın 26-da Vatikanda Roma Katolik kilsəsinin sabiq başçısı II İohann Pavellə görüşü idi. Katolik icma Azərbaycanda 1999-cu ildə təsis edildi. İcmanın ilk toplantıları evlərdə keçirilirdi. 22-24 may 2002-ci ildə Roma Papasının Azərbaycana etdiyi tarixi səfəri baş verdi. Bakıda olarkən pontifik Azərbaycandakı tarixi dözümlülük ənənələrini xüsusi qeyd etmişdir. Respublikanın paytaxtında layihəsi Vatikan ilə razılaşdırılan katolik kilsəsi inşa olunmuşdur. Bu gün katolik icmasında Vatikanın təyin etdiyi iki keşiş xidmət göstərir.

Artıq dinlərarası münasibətlərdə Azərbaycan dünyanın ən çox inkişaf etmiş ölkələrinə nümunə göstərilir. Bütün bunlar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin səyləri sayəsində mümkün olub və bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Bu vəziyyət, bir daha sübut edir ki, Azərbaycan Respublikasında həm nəzəri, həm də praktiki cəhətdən din dövlətdən, dövlət isə dindən ayrıdır ki, bu siyasətin formalaşması da, bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır.

Qeyd olunduğu kimi, Azərbaycanda 1992-ci ildən bəri "Üç dinin forumu" fəaaliyyət gostərir. Həmçinin, 1998-ci il dekabrın 10-da Heydər Əliyevin "İslam sivilizasiyası Qafqazda" beynəlxalq elmi-praktiki konfransda çıxışını, 1999-cu il noyabrın 16-da, yəni tolerantlıq günü Azərbaycanda fəaliyyət göstərən dini icma başçıları ilə Ulu Öndərin genişmiqyaslı görüşünü qeyd etmək olar. 1999-cu ildə 16 noyabr tolerantlıq günü Ümummilli Liderin təşəbbüsü ilə ölkəmizdəki dini konfessiyaların başçıları ilə növbəti görüş keçirilmişdir. O, bu təşəbbüsü ilə həm tolerantlıq prinsiplərinə münasibətini bir daha nümayiş etdirmiş, həm də gələcəkdə mütərəqqi bir ənənənin yaranması üçün zəmin hazırlamışdı. 2002-ci ilin oktyabrında Bakıda ATƏT-in "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda keçirilən konfransda Dini Liderlərin Beynəlxalq Forumunun yaradılması təklif olundu. Qərargahı Vaşinqtonda (Kolumbiya dairəsi) olan Beynəlxalq Dini Azadlıq Assosiasiyası artıq Azərbaycanda da fəaliyyət göstərir. 2002-ci il oktyabrın 10-11-də Bakıda keçirilən "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizmə və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda keçirilən beynəlxalq konfransda çıxış edən Ulu Öndər dünya dövlətlərini terrorizmin formalaşmasına xidmət edən bütün qaynaqları kökündən məhv etməyə çağırmışdı.

2009-cu ilin iyununda Moskvada "Müstəqil Dövlətlər Birliyi müsəlmanları konfessiyalararası və millətlərarası həmrəylik uğrunda" mövzusunda keçirilən beynəlxalq elmi konfransda çıxış edən şeyxülislam Allahşükür Paşazadə bildirmişdir ki, tolerantlığı dövlət səviyyəsinə qaldıran Azərbaycan başqa dövlətlərə nümunə ola bilər və bu müdrik kursun banisi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevdir. 2000-ci ildə tolerantlıq gününə həsr edilmiş mərasimdə iştirak edən şeyxülislam Allahşükür Paşazadə din xadimlərinin öz vəzifələrini aydın dərk etdiklərini, o bir Allahdan xoş gələn əmələ - xeyirxahlıq məfkurəsi, sülh, ədalətə xidmət edilməsi, milli və dini mənşəyindən asılı olmayaraq, bütün insanlar arasında qardaşlıq əlaqələrini vurğulayaraq, bu sahədə uğurların mənbəyinin Azərbaycanın tarixi mentaliteti və Ulu Öndər Heydər Əliyevin şəxsi nüfuzunun yenilməzliyi olduğunu yada salaraq, bütün dinlərin nümayəndələrinin hər zaman müdrik dövlət başçımızın ətrafında möhkəm birləşdiyini qeyd etmişdir.

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycan realıqlarını inkar edənlər də vardır. Lakin İsraildəki "IC Public Relations Research" İnstitutunun direktoru, "İsrail-Azərbaycan" Beynəlxalq Assosiasiyasının baş direktoru Lev Spivakın sözləri bu cür düşünənlərə tutarlı cavabdır. O demişdir: "Tolerantlıq Azərbaycan xalqının səciyyəvi cəhətidir və bu fikrə yalnız obyektiv informasiyaya malik olmayan adam etiraz edə bilər. Azərbaycan haqqında mənfi imic yaratmağa çalışsalar da, Azərbaycan yer üzündə yeganə dövlətdir ki, bir antisemitizm faktı belə qeydə alınmayıb. Əsrlər boyu etnik azərbaycanlılarla yanaşı, yaşayan xalqlar assimilyasiyaya məruz qalmamışdır, onların hər biri öz dilini, ənənələrini, mədəniyyətini qoruyub-saxlamışdır. Göründüyü kimi, 1993-cü ildə ikinci dəfə hakimiyyətə gəlişindən sonra Ümummilli Lider beynəlxalq qanunları və respublikamızın konstitusiyasını əsas tutaraq, Azərbaycanda vətəndaş həmrəyliyini qorumaqla, ayrı-seçkiliyə yol verməmiş və müxtəlif ekstremist və terrorist əhval-ruhiyyəli missionerlərin fəaliyyətinin qarşısını ala bilmişdir. ABŞ-ın sabiq dövlət katibi Henri Kissencer Heydər Əliyevin siyasi nüfuzu haqqında demişdir: "Mənim üçün, xüsusilə, böyük məmnunluqdur ki, bizim strateji, siyasi əhəmiyyət verdiyimiz bir ölkə dünya şöhrətli şəxsiyyət tərəfindən idarə olunur."

Heydər Əliyev gənc nəslin dinimənəvi dəyərlərə sədaqət ruhunda tərbiyə edilməsini din siyasətinin mühüm sahəsi hesab edirdi.

80-ci illərin sonu -90-cı illərin əvvəllərində xalqımızın üzləşdiyi faciələr, Qarabağ fəlakətinin yaratdığı mənəvi sarsıntılar gənclərimizin də əhval-ruhiyyəsinə, mənəvi tərbiyəsinə mənfi təsir göstərmişdi. Təsadüfi deyildir ki, məhz həmin dövrdə gənclər arasında cinayətkarlığın dinamikasında açıq meyillər müşahidə olunmağa başlanmışdır. Bunu statistik rəqəmlər də sübut edirdi. 1991-1995-ci illərdə qəsdən adamöldürmə cinayəti törətmiş 1456 nəfərin 719 nəfərini və ya 50 faizini, dövlət əmlakına qəsd etməklə cinayət törədən 15153 nəfərin 8269 nəfərini və ya 55 faizini 18-30 yaş arasında olan gənclər təşkil edirdi. Gənclər arasında narkomaniya ilə bağlı cinayətlərin artması da narahatçılıq doğururdu. 1990-1995-ci illərdə narkomaniya ilə bağlı cinayət törətmiş 8489 nəfərin təxminən yarısı - 3172 nəfəri 30 yaşına qədər olan şəxslər idi.

Heydər Əliyevin azərbaycançılıq ideologiyasının mühüm istiqamətini gənclərin Azərbaycanın müstəqilliyinə sadiqlik ruhunda tərbiyə edilməsi təşkil edirdi. Ulu Öndər üzünü gənclərə tutaraq deyirdi: "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir, sarsılmazdır. Hər bir gənc Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, inkişaf etdirmək, yaşatmaq üçün çalışmalıdır və öz xidmətlərini göstərməlidir.

Heydər Əliyevin zəngin nəzəri irsində gənclərin mənəvi tərbiyəsinin əsas istiqamətləri, prinsipləri, üsul və vasitələri öz əksini tapmışdı. O, gənclərin tərbiyəsində milli və mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə vəhdətdə götürülməsi, bunun gənclərimizin mənəvi kodeksini təşkil etməsini, gənclərlə işin bu istiqamətdə aparılmasını tövsiyə edirdi.

Heydər Əliyev dini dəyərləri gənclərin mənəvi tərbiyəsinin mühüm amili kimi qeyd edirdi. O, islam dininin bəşəriyyətə bəxş etdiyi bütün mənəvi nemətlərdən hər bir azərbaycanlının istifadə etməsini, xüsusən, cəmiyyətdə davranışında islamın tələblərini əsas götürməsini arzulayırdı. Konstitusiyaya görə, Azərbaycanın dünyəvi dövlət olduğunu, dinin dövlətdən ayrı olduğunu göstərməklə yanaşı, Heydər Əliyev gənclərdə dinə düzgün münasibətin formalaşdırılmasını, gənclərin islam dinini mənimsəmələri üçün lazımi tədbirlər görülməsini tələb edirdi. Heydər Əliyev gənclər arasında bəzi mənfi meyillərin mövcudluğunu onların tərbiyəsinə zərər vurduğunu, ona görə də, islam dininin məktəblərdə tədris olunması, təbliğinin zəruriliyinə diqqəti cəlb edirdi. O, gəncləri islam dinini olduğu kimi öyrənməyi, qəbul etməyi və ondan istifadə etməyi tövsiyə edir, eyni zamanda, ayrı-ayrı şəxslərin, qüvvələrin şəxsi mənafeləri naminə öz fəaliyyətləri ilə islam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsini pozanlara qarşı qəti mübarizə aparmağa çağırırdı.

O, gənclərin təlim-tərbiyəsində ümumbəşəri dünyəvi dəyərlərdən səmərəli istifadə etməyi, onları milli-mənəvi dəyərlərlə birləşdirməyi və xalqın mənəviyyatını zənginləşdirməyi də əsas vəzifə kimi ortaya qoyur, bu zaman həmin vəzifələri ağıl və zəka ilə həyata keçirməyi, milli və ümumbəşəri dəyərlərin sintezinə nail olmağı tələb edirdi.

Heydər Əliyevin göstərişinə uyğun olaraq, AR GİN tərəfindən "Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi" proqramı hazırlanmış və Nazirlər Kabirietinin 17 fevral 1999-cu il 285 N-li sərəncamı ilə təsdiq edilmişdir. Proqramda gənclərin vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyəsi, onlarda bu hisslərin gücləndirilməsi üçün konkret tədbirlər müəyyənləşdirilmişdi. Proqramda qeyd olunurdu ki, vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır. Vətəndaşlıq hissi isə vətənpərvərlik hissinin ən yüksək təzahür formasıdır.

Heydər Əliyev gənclərin mənəvi tərbiyəsini, onların mənəviyyata zidd əməllərdən çəkinməsini, narkomaniya kimi zərərli vərdişlərdən qorunmasını, gənclər arasında cinayətkarlığın qarşısının alınmasını dövlət-gənclər siyasətinin başlıca vəzifələrindən biri hesab edirdi.

Heydər Əliyev gənclərlə keçirdiyi əksər görüşlərdə onu dərindən düşündürən və narahat edən bütün mənfi hallara - cinayətkarlıq, narkomaniya, spirtli içkilərə meyillilik və s. məsələlərə öz münasibətini bildirir, bu məsələlərə biganə qalmamağı, cəmiyyətə yad olan belə halların aradan qaldırılmasında birgə fəaliyyət göstərməyi tövsiyə edirdi. Gənclərlə görüşündə Heydər Əliyev Azərbaycanda gənclər arasında cinayətkarlığın artmasını, əxlaq pozğunluğunun mövcudluğunu, sərxoşluğa, narkomaniyaya meyilin çoxalması haqqında məlumatları ürək ağrısı ilə qarşıladığını, Azərbaycanın genefondunun gənclər olduğunu vurğulayaraq, onları hərtərəfli qorumağı, dövlət orqanlarından bu mənfi halların gənclərə sirayət etməsinin qarşısını almaq üçün lazımi tədbirlər görməyi tələb etmişdi.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs
Son səhifə 29 noyabr

## "Forbes" ən varlı gənc məşhurların adlarını açıqlayıb



"Forbes" jurnalı ən çox qazanc əldə edən 30 yaşa qədər məşhurların reytinqini tərtib edib. Siyahıda ilk yeri amerikalı model Kayli Cenner tutub. Onun varidatı 900 milyon dollar həcmində qiymətləndirilir. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, "Kylie Cosmetics" kosmetika istehsalı şirkətinin 21 yaşlı sahibəsi Cennerin illik gəliri 166,5 milyon dollar təşkil edir. Reytinqin 2-ci pilləsində illik gəliri 110 milyon dollar həcmində qiymətləndirilən britaniyalı musiqiçi Ed Şiran qərarlaşıb. Fransanın "Pari Sen-Jermen" futbol klubunun braziliyalı futbolçusu Neymar isə ildə 90 milyon dollar qazanaraq siyahıda 3-cü yeri tutub. Bir ildə 80 milyon dollar gəlir əldə edən amerikalı müğənni Teylor Svift və 57 milyon dollar qazanan kanadalı müğənni Eybel Tesfaye ilk beşliyə daxil olub.

## Kanadada ayı qadını və onun 10 aylıq körpəsini parçalayıb



Kanadanın arktik Yukon ərazisində qrizli ayısının hücumu nəticəsində qadın və onun 10 aylıq qızı həlak olub. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, insident noyabrın 26-da günorta saatlarında Mayo yaşayış məntəqəsi yaxınlığında qeydə alınıb. Yırtıcı 37 yaşlı Valer Teoretin evinə soxulub. Hadisə baş verən zaman evdə olmayan ailə başçısı Jermon Roşolt geri qayıdanda ayı ilə qarşılaşıb və onu güllələyib. O, faciəni gördükdən sonra polisə zəng edib. Hazırda hadisə ilə bağlı təhqiqat başlayıb.

Bir qədər əvvəl bu rayonda ağ ayının hücumu nəticəsində 2 nəfərin həlak olduğu barədə məlumat verilmişdi. Mayo qəsəbəsi regionun administrativ mərkəzi - Uaythors şəhərindən 400 kilometr şimalda yerləşir.

## "De Xea dünyanın ən yaxşı qapıçısıdır"



"Mançester Yunayted"in baş məşqçisi Joze Mourinyo mövsümün sonunda müqaviləsi bitəcək David De Xeanın komandada qalmasını istəyir. Qol.az-ın məlumatına görə, portuqaliyalı mütəxəssis Britaniya mətbuatına açıqlamasında 28 yaşlı qapıçını dünyanın ən yaxşısı adlandırıb: "De Xea dünyanın ən yaxşı qapıçısıdır. "Ən yaxşı klub odluğumuz üçün ən yaxşı qapıçı və ən yaxşı oyunçulara sahib olmalıyıq". Qeyd edək ki, Britaniya mətbuatı ispaniyalı qolkiper mövsümün sonunda komandadan ayrılacağını yazıb. Onunla PSJ və "Yuventus" maraqlanır.

## Elan

Soltanov Cavid Aqif oğluna məxsus sürücülük vəsiqəsi, maaş kartı və Socar Şirkətinin Polietilen zavoduna buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## "The Guardian": 2018-ci il Formula 1-in ən yaxşı yarışı Azərbaycan Qran-Prisi oldu



***Britaniyanın məşhur "The Guardian" qəzeti 2018-ci il Formula 1-in ən yaxşı yarışının Azərbaycan Qran-Prisi olduğunu yazır. AZƏRTAC xəbər verir ki, Bakı yürüşü 2017-ci ildə də ən yaxşı yürüş hesab edilmişdi. "The Guardian" yazır: "Bakı küçələrində yenə də hər şey vardı. Cəlbedici yürüş və bütün mövsümün mikrokosmu. "Red Bull" komandasının pilotları Daniel Rikkardo və Maks Ferstappen, necə deyərlər, "dabanbasdı" gedirdilər. Nəticədə hollandiyalının dəlisov manevri ucbatından onlar bir-birini yürüşdən kənarlaşdırdılar.***

Valtteri Bottasın maşını təhlükəsizlik avtomobili trasına çıxandan sonra Bottas liderliyi ələ keçirdi, Sebastyan Fettel isə ehtiyatlı olmağı unutdu və yürüş yenidən davam edəndə Bottası ötüb keçməyə cəhd göstərdi. Lakin elə ilk döngədə Fettel səhvə yol verdi və mövqeyini itirdi. Bu, zəruri olmayan bir neçə səhvin biri idi. Nəticədə Fettel onun üçün demək olar ki, təmin olunmuş ikinci yer əvəzinə dördüncü yerlə kifayətlənməli oldu. Sonuncudan əvvəlki dövrədə Bottasın avtomobilinin şini partladı, qələbə sevinci isə Luisi Hamiltona qismət oldu. Beləliklə, Hemilton öz karyerası ərzində 5-ci dəfə çempion oldu".

"The Guardian" Hemiltonu ilin ən yaxşı yürüşçüsü hesab edib. Qalib pilotun daxil olduğu "Mercedes" ilin ən yaxşı komandası, Daniel Rekordunun Şanxaydakı manevri ilin ən yaxşı ötmə əməliyyatı hesab edilib.

Britaniya nəşrinin ekspertlərini ən çox heyrətləndirən Formula 1 yarışlarının yeni iştirakçısı Şarl Lekler olub. Yazıda bu barədə deyilir: "Lekler "Zauber Ferrari" komandasında özünün daha təcrübəli yoldaşı Markus Eriksonu üstələdi. O, qətiyyətli hərəkət edərək öz ustalığını sübut etdi. Bakıda 6-cı yeri tutdu. Bu, Lekler üçün əsl zəfər idi. Lakin Braziliyada keçirilən təsnifat yarışlarında Şarl öz istedadını daha yaxşı nümayiş etdirdi. Deyə bilərik ki, indi "Ferrari"nin sərəncamında nadir istedad sahibi olan bir yürüşçü var".

Bildirilir ki, ən böyük səhvə yol verən Fettel və "Ferrari" olub. Yaxşılığa doğru dəyişiklik nominasiyasında Maks Ferstappen fərqlənib. O, mövsüm ərzində ustalığını təkmilləşdirərək yekunda 4-cü yeri tutub. İki dəfə dünya çempionu olmuş Fernando Alonsonun Formula 1 yarışlarını tərk etməsi "ilin vida mərasimi" adlandırılıb.

## Ronaldodan Çempionlar Liqasında yeni rekord



"Yuventus" klubunun portuqaliyalı forvardı Kriştiano Ronaldo UEFA Çempionlar Liqasında 100-cü dəfə qələbə sevinci yaşayıb.

AZƏRTAC "Matchday.ua" portalına istinadla xəbər verir ki, yubiley qələbəsi turnirin qrup mərhələsi çərçivəsində ötən gecə "Valensiya" ilə qarşılaşmada əldə edilib - 1:0. Beləliklə, K.Ronaldo Çempionlar Liqasında komandası ilə 100 qələbə qazanan ilk futbolçu olub. Portuqaliyalı forvard bu göstərici üzrə 136 komandanı üstələyir.

## Roberto Karlos: "Neymara bütün klubların ehtiyacı var"



Braziliya millisinin keçmiş üzvü Roberto Karlos PSJ-nin hücumçusu Neymar haqda danışıb. Qol.az-ın "Goal.com"a istinadən yaydığı xəbərə görə, veteran müdafiəçi həmyerlisinin "Real"a transfer olunacağı ilə bağlı yayılan xəbərlərə də münasibət bildirib. O deyib ki, Neymar xüsusi istedadı olan möhtəşəm bir oyunçudur: "Şübhəsiz ki, bir gün dünyanın ən yaxşısı olacaq. Ona yalnız vaxtı ilə mənim də çıxış etdiyim "Real"ın deyil, dünyanın bütün böyük klublarının ehtiyacı var". Qeyd edək ki, Karlos 1996-2007-ci illərdə "kral klubu"nun formasını geyinib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**